

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Bakıda Leyla Əliyevanın iştirakı ilə növbəti abad həyətlər istifadəyə verilib




4

SƏS
№ 065 (6990)
17 aprel 2024-cü il.
Qiyməti 60 qəpik

# Su mənbələrimizə tam sahib olan Azərbaycan



2

Prezident İlham Əliyev: "Su ehtiyatlarından səmərəli şəkildə istifadə etmək bizim başlıca vəzifəmizdir"

# İsrail-İran savaşı, yoxsa...




5

## Küçədə toplaşmaq 90-larda qaldı



10

## Bu bitkiləri yataq otağından ayırmayın: ÖMRÜ UZADIR



11

## "Tədbirlərə ev sahibliyi etməyimiz göstərir ki..."




10

## "Belə təxribatlar rəsmi İrəvanın özü üçün problemlər yaradacaq"



12

## "Barselona" bu futbolçuya qiymət qoydu: 80 milyon avro!



16

# Su mənbələrimizə tam sahib olan Azərbaycan

## Prezident İlham Əliyev: "Su ehtiyatlarından səmərəli şəkildə istifadə etmək bizim başlıca vəzifəmizdir"

Suvarılan əkin sahələrinin artırılması ilə yanaşı, mövcud sahələrdən səmərəli istifadə edilməsi və onların meliorasiya vəziyyətinin durmadan yaxşılaşdırılması müasir dövrümüzdə əsas məsələlərdən biridir. Respublikamızda su təsərrüfatı işlərinin geniş miqyasda inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir. Böyük magistral kanallar çəkilir, süni göllər yaradılır, mövcud suvarma sistemlərinin yenidən qurulması və meliorasiya vəziyyətinin yaxşılaşdırılması kimi böyük işlər görülür. Son dövrdə qlobal iqlim dəyişmələri və ölkədə suya tələbatın artması şəraitində su ehtiyatlarından səmərəli istifadə sahəsində davamlı tədbirlər görülmüşdür. Uzun illər ərzində bu istiqamətdə görülən işlər, o cümlədən iri su anbarlarının, hidroqovşaqların, suvarma və kollektor-drenaj sistemlərinin, nasos stansiyalarının və digər infrastrukturların qurulub istifadəyə verilməsi ölkədə su təminatının yaxşılaşdırılmasına, su itkilərinin qarşısının alınmasına, habelə aqrar sektorun dayanıqlı inkişafına mühüm töhfə verib.

Bildiyimiz kimi, bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyev "Şirvan suvarma kanalının yenidən qurulması haqqında" Sərəncam imzalayıbdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Hacıqabul rayonunda yenidən qurulacaq Şirvan suvarma kanalının təməlini qoyub. "Mən bir neçə gün bundan əvvəl Şirvan suvarma kanalının yenidən qurulması haqqında Sərəncam imzalamışam, bu gün isə kanalın təməli qoyulur. Bu, çox əlamətdar hadisədir. Şirvan suvarma kanalının təməlinin qoyulması çox əlamətdar hadisədir. Son illər ərzində Azərbaycanda həyata keçirilən infrastruktur layihələri arasında bu layihənin xüsusi əhəmiyyəti vardır". Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev aprelin 16-da Hacıqabul rayonunda yenidən qurulacaq Şirvan suvarma kanalının təməlqoyma mərasimindəki çıxışında deyib.







### "MİNLƏRLƏ İNSAN BU LAYİHƏDƏN FAYDALANACAQ"

Ölkənin ikinci ən böyük kanalı olan torpaq məcralı Yuxarı Şirvan suvarma kanalı Şirvan düzündə yerləşən 8 rayonun 112 min hektardan artıq əkin sahəsini suvarma suyu ilə və yaşayış məntəqələrini məişət suyu ilə təmin edir. Fasiləsiz istismar olunduğu 65 ildən çox müddət ərzində sözügedən kanalın cari və əsaslı təmirinə baxmayaraq, onun torpaq məcrasında baş verən dəyişikliklər, eləcə də qurğuların öz funksiyasını itirməsi su itkisinin artmasına səbəb olmuşdur. Bununla əlaqədar kanalın yenidən qurulması üçün texniki-iqtisadi əsaslandırma və layihə-smeta sənədləri hazırlanmışdır.

Sərəncam Yuxarı Şirvan suvarma kanalının infrastrukturunun bərpası, habelə mövcud təsərrüfatların su təminatı məsələlərinin vaxtında və effektiv şəkildə həllinin dəstəklənməsi, su ehtiyatlarından daha səmərəli istifadə olunması, magistral kanalın suburaxma qabiliyyətinin artırılması məqsədi daşıyır. Sərəncama əsasən, Yuxarı Şirvan suvarma kanalı yenidən qurulur və Şirvan suvarma kanalı adlandırılır.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi Şirvan suvarma kanalının yenidən qurulması ilə bağlı müvafiq tədbirlərin görülməsini təmin edəcək.

Artıq bu kanalın Şirvan kanalı adlandırıldığını vurğulayan dövlətimizin başçısı bildirib: "Faktiki olaraq kanal yenidən inşa ediləcək və beləliklə, minlərlə insan bu layihədən faydalanacaq. 120 kilometrlik kanalın uzunluğu təxminən iki dəfə artırılacaq və 200 kilometrdən çox olacaq. Əkin sahələrinə gəldikdə isə o da iki dəfədən çox artırılacaq".

Vurğulamaq yerinə düşər ki, 1958-ci ildə istifadəyə verilən və ölkənin ikinci ən böyük kanalı olan torpaq məcralı Yuxarı Şirvan suvarma kanalı başlanğıcını Mingəçevir su anbarından götürür. Yuxarı Şirvan kanalı Şirvan düzündə yerləşən Yevlax, Ağdaş, Göyçay, Zərdab, Ucar, Kürdəmir, İsmayıllı və Ağsu rayonlarının 112 min hektardan çox əkin sahəsini suvarma və yaşayış məntəqələrini məişət suyu ilə təmin edir. Suötürmə qabiliyyəti saniyədə 78 kubmetr və uzunluğu 122 kilometr olan kanalın 65 ildən artıq fasiləsiz istismar edilməsi, illik su itkilərinin kəskin artması və qurğuların qəzalı vəziyyətə düşərək funksiyalarını itirməsi nəticəsində torpaqların meliorativ vəziyyəti pisləşərək deqradasiyaya uğrayıb. Bütün bunlar mövcud əkin sahələrinin vegetasiya dövründə suvarma suyu ilə təminatında çatışmazlıqlar yaradıb, bölgənin suya daim artan tələbatının ödənilməsindəki gərginliyi daha da dərinləşdirməklə ekoloji tarazlığın pozulmasına gətirib çıxarıb.

### "ƏGƏR ƏVVƏLKİ DÖVRLƏRDƏ BU KANAL 8 RAYONU ƏHATƏ EDİRDİSƏ, İNDİ 10 RAYONU ƏHATƏ EDƏCƏK"

İcra ediləcək yeni layihənin 230 min hektar əkin sahəsini əhatə edəcəyini bildirən Cənab Prezident bildirib ki, bunun böyük hissəsinin yeni suvarılacaq əkin sahələri olacaqdır: "Əgər əvvəlki dövrlərdə bu kanal 8 rayonu əhatə edirdisə, indi 10 rayonu əhatə edəcək və kanalın son nöqtəsi, bax, arxamdakı Hacıqabul gölü olacaq. Hacıqabul gölü də 10 ildən çoxdur ki, tamamilə quruyub. Kanal istifadəyə verilləndən sonra göl də dolacaq və bunun da təbiətə çox müsbət təsiri olacaqdır".

"Bu layihə ilə biz bu sahəyə yeni nəfəs gətiririk", - deyən dövlətimizin başçısı gələn il Qarabağ kanalının inşasına başlanılacağını vurğulayıb. "Bu da 115 min hektarı əhatə edəcək kanaldır. Orada da əhatə olunan rayonların sayı 9-a bərabərdir. Yəni, burada 10 rayon Şirvan kanalı vasitəsilə, 9 rayon isə Qarabağ kanalı vasitəsilə suvarılacaq".

Ölkəmizin ən böyük magistral suvarma kanalı olan Yuxarı Qarabağ kanalı Qarabağ zonası və ona yaxın ərazilərdə yerləşən 9 rayonun 115 min hektaradək əkin sahəsini suvarma suyu ilə və yaşayış məntəqələrini məişət suyu ilə təmin edir, habelə Araz çayı üzərindəki Bəhrəmtəpə hidroqovşağına əlavə su ötürməklə müvafiq əkin sahələrinin su təminatına dəstək verir. Yuxarı Qarabağ suvarma kanalında yüksək su itkilərinin qarşısının alınması, suvarma suyu ilə təminatda yaranan çatışmazlıqların aradan qaldırılması, həmçinin torpaqların meliorativ və ətraf ərazilərin ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün sözügedən kanalın yenidən qurulması zərurəti yaranıb. Qarabağ zonası və ona yaxın ərazilərdə su təchizatı infrastrukturunun müasirləşdirilməsi, su itkilərinin azaldılması və meliorasiya olunmuş torpaq sahələrinin genişləndirilməsi məqsədilə Azərbaycan Prezidenti İlham Əliyev Sərəncam imzalayıb. Sərəncama əsasən, Yuxarı Qarabağ suvarma kanalı yenidən qurulacaq və Qarabağ suvarma kanalı adlandırılacaq.

### "İQLİM DƏYİŞİKLİYİ İLƏ BAĞLI DÜNYADA BÖYÜK NARAHATLIQ VAR"

"İqlim dəyişikliyi ilə bağlı dünyada böyük narahatlıq var, o cümlədən Azərbaycanda", - deyən dövlətimizin başçısı bildirib ki, biz indi görürük ki, bu il faktiki olaraq əvvəlki illərdən fərqlənirdi. Bu il kifayət qədər qar, yağış yağdığını, su hövzələrimizdə, su anbarlarında kifayət qədər su olduğunu qeyd edən dövlətimizin başçısı bildirib: "Ancaq əvvəlki illərdə biz hər il quraqlıqla üzləşirdik. Bizim dağlarımıza daha az qar yağırdı. Çaylarımızda suyun səviyyəsi əvvəlki illərdə aşağı düşürdü, bəzi hallarda əsas çaylarımız quruyurdu. Xəzər dənizinin dayazlaşması göz önündədir. Bunu hər kəs görə bilir. Belə olan halda su ehtiyatlarından səmərəli şəkildə istifadə etmək bizim başlıca vəzifəmizdir".

Ardı Səh. 3



# Su mənbələrimizə tam sahib olan Azərbaycan

## Prezident İlham Əliyev: "Su ehtiyatlarından səmərəli şəkildə istifadə etmək bizim başlıca vəzifəmizdir"

Əvvəli Səh. 2

Prezident İlham Əliyev çıxışı zamanı onu da bildirib ki, növbəti illərdə hökumətin qarşısında duran əsas infrastruktur layihələri arasında başlıca vəzifə içməli su layihələri və suvarma layihələri olacaqdır. Artıq genişmiqyaslı proqramın işlənib hazırlandığını vurğulayan dövlətimizin başçısı qeyd edib ki, Şirvan və Qarabağ kanalları Taxtakörpü kanalı ilə birlikdə ən böyük suvarma kanalları olduğu üçün bu layihələrə xüsusi əhəmiyyət verilir: "Ancaq artıq qəbul edilmiş proqram əsasında Azərbaycanda 10-dan çox su anbarı inşa ediləcəkdir".

### "CƏMİ ÜÇ İL ƏRZİNDƏ GÖRÜLMÜŞ İŞLƏR DÖVLƏTİMİZİN GÜCÜNÜ, HÖKUMƏTİMİZİN VƏ DÖVLƏTİMİZİN İRADƏSİNİ GÖSTƏRİR"

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha böyük zirvələr fəth edir. Bütün sahələr üzrə hərtərəfli inkişaf etmiş, güclü iqtisadiyyata sahib müstəqil Azərbaycan qalib dövlətdir. Xalq-iqtidar birliyi bizi zəfərə, qələbədən- qələbəyə aparır. Prezident İlham Əliyev xalqımızın həyatında böyük dəyişikliklər yaradan tarixi vəzifələrin həyata keçirilməsi yükünü və məsuliyyətini daşıyaraq milli maraqları ifadə edən siyasət həyata keçirir. İşğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qayıdışımızla əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib. Bu gün işğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işləri böyük vüsət alıb. "Azərbaycan dövləti güclü dövlətdir, öz gücünə, öz imkanlarına arxalanan dövlətdir", - deyən Prezident diqqətə çatdırıb ki, biz Qarabağda və Şərqi Zəngəzurda elə genişmiqyaslı işlər görürük ki, bunun dünyada misli-bərabəri yoxdur: "Həm yaşayış evləri, infrastruktur layihələri, suvarma layihələri, dəmir yolları, tunellər, hava limanları - cəmi üç il ərzində görülmüş işlər dövlətimizin gücünü, hökumətimizin və dövlətimizin iradəsini göstərir. Dediyim bu layihələrin hamısı icra ediləcək".

### "VƏTƏN MÜHARİBƏSİ VƏ ANTİTERROR ƏMƏLİYYATI NƏTİCƏSİNDƏ BİZ BU GÜN ÖZ SU MƏNBƏLƏRİMİZƏ TAM SAHİB OLMUŞUQ"

Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad olunan ərazilərimizə səfəri və bərpa-quruculuq işləri ilə şəxsən maraqlanması, istehsal müəssisələrinin, sosial obyektlərin təməlqoyma, açılış mərasimlərində iştirak etməsi görülən işlərin sürətini artırmaqla yanaşı, keyfiyyətinin də yüksək olmasından xəbər verir. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, abadlıq-quruculuq işlərinin müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunur.

"Vətən müharibəsi və antiterror əməliyyatı nəticəsində biz bu gün öz su mənbələrimizə tam sahib olmuşuq", - deyən Prezident diqqətə çatdırıb, Vaxtilə Ermənistanın təkcə bizim torpaqlarımızı deyil, resurslarımızı da işğal etdiyini xatırladan dövlətimizin başçısı bildirib: "Qarabağ və Şərqi Zəngəzurda mövcud olan su resursları bizim ümumi su resurslarımızın 25 faizini təşkil edir. Bu su resurslarının əsas xüsusiyyəti, müsbət tərəfi odur ki, bunlar daxili mənbələr hesabına formalaşan su resurslarıdır".

Prezident qeyd edib ki, Qarabağın və Şərqi Zəngəzurun su resursları daxili mənbələr olduğu üçün bunun xüsusi əhəmiyyəti var. Qarabağ və Şərqi Zəngəzur torpaqlarında ən müasir texnologiyaların tətbiqi nəticəsində həm taxılçılığın, həm meyvəçiliyin, bostançılığın, üzümçülüyün geniş vüsət alacağını bildirən Cənab Prezident həmin ərazilərin Azərbaycanın ən gözəl yerlərindən biri olduğunu vurğulayıb: "Kənd təsərrüfatı üçün yararlı torpaqların, su resurslarının - çayların, bulaqların, yaylaqların mövcudluğu həm heyvandarlıq, həm də bitkiçilik üzrə çox böyük imkanlar yaradır. Biz hər şeyi planlı şəkildə edirik ki, hər qarış torpaqdan maksimum məhsuldarlıq, maksimum səmərə götürək və bunu edəcəyik"

## Meksika mətbuatı: "Qərb Ermənistan vasitəsilə Cənubi Qafqazı parçalayır"




Meksikanın geniş oxuyucu kütləsinə malik "El Universal" qəzetində ölkənin aparıcı ali təhsil müəssisələrindən olan UNAM (Universidad Nacional Aut?noma de M?xico) Universitetinin professoru Talya İşcanın müəllifliyi ilə Qərbin Cənubi Qafqazı qarşıdurma və toqquşmalar üçün yeni platformaya çevirmək niyyətinə dair "Dananlara və gətirdikləri hədiyyələrə etibar etməyin" (Teman a los d?naos y a los regalos que traen) başlıqlı təhlil xarakterli məqalə dərc olunub.

Bu barədə AZƏRTAC-a Azərbaycanın Meksikadakı səfirliyindən bildirilib.

Brüsseldə keçirilmiş məlum 5 aprel görüşünə istinad edən müəllif sülhə istiqamətlənən regionda Qərbin son addımlarından xəbərdar olanlar üçün Ermənistana artan marağın təəccüblü olmadığını bildirib.

Ermənistanı təhrik edərək Cənubi Qafqazı parçalamaq və Azərbaycanın təcrid olunmasını nəzərdə tutan keçirilmiş görüşə münasibətdə ölkəmizin narahatlığına haqq verən müəllif sözügedən görüşün digər regional güc Türkiyə tərəfindən regionda bir çox mürəkkəb problemlərin həlli üçün əsas olan neytral yanaşmanı pozmaq cəhdi kimi qiymətləndirildiyini, Azərbaycanı istisna edən istənilən təşəbbüsün Cənubi Qafqazın sülh əvəzinə geosiyasi qarşıdurmaya çevrilməsinə yol açacağı barədə xəbərdarlıq edildiyini vurğulayıb.

Bu xüsusda, məqaləsində Qərbin və Avropanın Ermənistanla iqtisadi əməkdaşlıq adı altında pərdələnmiş görüşünün əsl məramını təhlil edən müəllif görüşün əslində regionu parlaçalamağa yönəlik bir addım olmasına eyham edib. O, Avropa tərəfindən Ermənistanı silahlandırmaq və ölkəni Rusiyadan uzaqlaşdırmaqla Cənubi Qafqazı idarə etmək məqsədilə mütəmadi əsasda səsləndirilən mövcud olmayan "təşviş yaradan" ssenarilər, habelə Fransa prezidenti və Fransanın Ermənistandakı səfiri tərəfindən səsləndirilən bəyanatlar fonunda Qərbin səmimiyyətinin şübhə doğurduğunu bildirib.

Məqaləsində bununla yanaşı Qərbin bu kimi mövqeyinin təhlükəli olduğunun İtaliya kimi bir sıra Avropa dövlətləri tərəfindən qəbul edildiyini bildirən müəllif sözügedən ölkələr tərəfindən Azərbaycanın Aİ-nin tərəfdaşı kimi, xüsusilə də enerji sektorunda mühüm rolunun tanındığını diqqətə çatdırıb.

Məqaləsində Ermənistanın Qərblə yaxınlaşmasının mənfi nəticələrindən söz açan müəllif Rusiya və İranın sərgilədiyi mövqelərə toxunub. O, Ermənistan hökumətinin vəziyyətdən istifadə edərək özünü Rusiya və İrana qarşı Qərbin dayağı kimi göstərməyə çalışdığını qeyd edib. Bu xüsusda, Qərb tərəfindən Ermənistanın tarixi və ən mühüm müttəfiqi Rusiyadan uzaqlaşdırmaq cəhdlərinin öz növbəsində bir sıra Qərb ölkələri ilə Rusiya arasında yeni gərginliklərə yol açdığını bildirən müəllif Rusiya mənbələrinə istinadən Ermənistanda yerləşdirilmiş məlum Aİ missiyasının faktiki olaraq NATO missiyası olduğunu diqqətə çatdırıb. İrana gəldikdə isə, Ermənistanın Qərblə yaxınlaşmamaqla bağlı xəbərdarlıq edildiyi xatırladılıb.

Sonda Qərbin son gedişi və cəhdlərinin Qərblə Rusiya arasında daha bir qarşıdurmaya səhnə kimi Cənubi Qafqaz regionunun parçalanması istiqamətində çox təhlükəli tendensiyaya dəlalət etdiyini bildirən müəllif bunun Ermənistanın gələcəkdə suverenliyinin zəifləşməsi ilə ölkənin "suriyalaşması" demək olduğunu diqqətə çatdırıb. Məqalə ilə bu linkdən tanış olmaq mümkündür: https://www.eluniversal.com.mx/opinion/talya-iscan/teman-a-los-danaos-y-a-los-regalos-que-traen/

## Mer: "Azərbaycan İrpenin ən böyük 4 obyektinin yenidən qurulmasını və bərpasını maliyyələşdirəcək"



Müharibədən ciddi ziyan görən Ukraynanın İrpen şəhərinin bərpa və yenidən qurulmasında Azərbaycan dövləti dəstəyini davam etdirir. Artıq Azərbaycanın maliyyə dəstəyi ilə əsaslı təmir olunan İrpen şəhər poliklinikasında işlərin birinci mərhələsi başa çatmaq üzrədir. Bu sözləri AZƏRTAC-a açıqlamasında İrpen şəhərinin meri Oleksandr Markuşin söyləyib.

"Biz İrpenin 7 mərtəbəli şəhər poliklinikasının bərpası və əsaslı təmiri ilə tanış olduq. Bu binanın təmirini Azərbaycanın SOCAR şirkəti öz üzərinə götürüb. Təmirin birinci mərhələsinin aprelin 28-dək təhvil verilməsi nəzərdə tutulur. Akademik Zərifə Əliyevanın doğum günündə Azərbaycan-Ukrayna dostluğuna xidmət edən Azərbaycan Mədəniyyət Günü də keçiriləcək. Biz irpenlilərə Azərbaycan mədəniyyətinin necə olduğunu göstərəcəyik", - deyə mer vurğulayıb.

Azərbaycan dövlətinin daha 4 layihəyə dəstək verəcəyini bildirən O.Markuşin qeyd edib ki, bunlar çox böyük layihələrdir.

"Mən, ilk növbədə, göstərdiyi dəstəyə görə bir daha Azərbaycan Prezidentinə, xalqına təşəkkür edirəm. Azərbaycan bizə çox böyük kömək göstərir. Biz indi kimin qardaş və kimin düşmən olduğunu dəqiq bilirik. Hazırda İrpendə digər obyektlərin bərpası ilə bağlı layihələrə dair ölkələr arasında razılaşma sənədi Ukraynanın Xarici İşlər Nazirliyində imzalanma mərhələsindədir. Azərbaycan İrpenin ən böyük 4 obyektinin yenidən qurulmasını və bərpasını maliyyələşdirəcək. Bunlar Mərkəzi Mədəniyyət Evi, tam dağılan İrpen Uşaq-Gənclər İdman Məktəbi, İncəsənət Mərkəzi və doqquzmərtəbəli yaşayış binasıdır. Bunlar çox böyük layihələrdir", - deyə O.Markuşin əlavə edib.

# Bakıda Leyla Əliyevanın iştirakı ilə növbəti abad həyətlər istifadəyə verilib

**“Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində Heydər Əliyev Fondunun vitse-prezidenti, ”IDEA” İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Bakı şəhəri Xətai rayon Rahib Məmmədov küçəsi 4. 4a. 15q. və Cavanşir küçəsi 7 və 9 saylı ünvanlarında 2200-dən çox sakinin yaşadığı çoxmərtəbəli binaları əhatə edən həyətlər abadlaşdırılaraq sakinlərin istifadəsinə verilib.**

Dünən baş tutan açılış mərasimində iştirak edən Leyla Əliyeva tədbir çərçivəsində keçirilən kütləvi ağacəkmə aksiyasında iştirak edib, həyətin azyaşlı sakinlərinə hədiyyələr təqdim edib.










Qeyd edək ki, ”Bizim həyət” layihəsinin əsas məqsədi paytaxt ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad olması, yaşıllıqların bərpası, mənalı istirahət mühitinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır. Abadlaşdırılan həyətlərdə sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli təşkili və onlarda idmana marağın artırılması məqsədilə ərazidə süni örtüklü futbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaqlar üçün oyun meydançaları salınıb. Eyni zamanda, həyətyanı sahələrdə beş söhbətgah, çoxsaylı oturacaqlar, quş yuvaları və pişik evləri quraşdırılıb. Bundan əlavə, həyətlərdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub, asfalt və dam örtüyü, elektrik xətləri yenilənib.












Həyətlərin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, müxtəlif növ 1680 ağac, 19 min 256 kol bitkisi əkilib, 8549 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Bununla yanaşı, həyətin ətrafında sıx bitən və havanın çirklənməsinin qarşısını almaq məqsədilə adi daşsarmaşığı və digər sarmaşan bitkilər əkilərək ”yaşıl sədlər” yaradılıb.

Məlumat üçün bildirək ki, ”IDEA” İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə 2017-ci ildən etibarən icra olunan ”Bizim həyət” layihəsi çərçivəsində bu günədək 152 ümumi yaşayış sahəsi abadlaşdırılaraq sakinlərin istifadəsinə verilib.

Xüsusi olaraq qeyd edək ki, ”IDEA” İctimai Birliyi həyətlərin abadlaşdırılması və yenidənqurma işlərinin aparılması istiqamətində sakinlərin təklif və müraciətlərini İctimai Birliyə təqdim etməyə çağırır. Müraciətlərinizi ”IDEA” İctimai Birliyinin qaynar xətti ”1113” və ya e-mail ünvanına (info@ideacampaign.org) göndərməyiniz xahiş olunur.



Bundan başqa, Aprelin 16-da Heydər Əliyev Fondunun vitse-prezidenti, ”IDEA” İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə ”Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində paytaxt Bakının Nizami rayonunun Mikayıl Əliyev və Kamil Balakişiyev küçələrinin kəsişməsində yerləşən boş ərazidə ağacəkmə aksiyası həyata keçirilib.

Bu ərazi vaxtilə tikinti materialları və məişət tullantıları ilə mütəmadi olaraq çirkləndirilmişdir. ”IDEA” İctimai Birliyinin təşəbbüsü və könüllülərin iştirakı ilə həmin ərazi tullantılardan təmizlənib, torpaq qatının tökülməsi ilə rekultivasiya edilib.

Təəssüf ki, bu gün paytaxtımızda hava təbəqəsi avtomobil nəqliyyatı, istehsal və istehlak fəaliyyəti zamanı yaranan tullantılarla çirklənir, havada olan toz və digər yad maddələr insan sağlamlığına, bütün ekoloji tarazlığa zərər verir. Meşə zolağının salınması, yaşıllaşdırma fəaliyyətləri ekoloji tarazlığın bərpasına və havanın keyfiyyətinin yaxşılaşdırılmasına müsbət təsir edir.

Leyla xanım Əliyevanın iştirakı ilə baş tutan budəfəki aksiyada meşə zolağının salınması nəzərdə tutulan ərazinin sahəsi 2 hektara yaxındır. Aksiya zamanı 500 Eldar şamı, sərv, tuya, akasiya, zeytun ağacları əkilib və abadlıq işləri aparılıb. Bu ərazidə ağacların səmərəli sulanması və su israfının qarşısının alınması üçün damcılı suvarma sistemindən istifadə nəzərdə tutulub.

”IDEA” İctimai Birliyi bu cür ekoloji aksiyaların mütəmadi olaraq təşkili ilə ətraf mühitin mühafizəsinin vacibliyini insanların, xüsusilə, gənc nəslin diqqətinə çatdırır və onları ekoloji problemlərə qarşı mübarizədə birgə fəaliyyətə səsləyir.

# İsrail-İran savaşı, yoxsa...

***İsrail liderləri İranın raket hücumuna necə cavab verəcəklərini müzakirə edirlər. Hərbi kabinetin bəzi üzvləri beynəlxalq dəstəyin İsrailin tərəfində qaldığı bir vaxtda İrana tez bir zamanda zərbə endirməyi təklif edirlər. Bununla belə, baş nazir Benyamin Netanyahu qərar verməyə tələsmir. ABŞ daha da gərginləşəcəyindən ehtiyat edərək onu təmkinli olmağa çağırır. Baş nazir hərbçilərə İrana hücumlar üçün "siqnal" rolunu oynayacaq, lakin çoxlu sayda itkiyə səbəb olmayacaq hədəflər tapmağı tapşırıb. Lakin bu ssenari Vaşinqtonun da xoşuna gəlmir. Ağ Ev Tehrana "diplomatik cavab" verməkdə israrlıdır.***

İsrailin hərbi kabineti aprelin 1-də İsrailin Dəməşq yaxınlığındakı İslam Respublikasının konsulluğuna hücumuna cavab olaraq aprelin 14-nə keçən gecə İranın hücumuna necə və nə vaxt cavab veriləcəyini müzakirə etməyə davam edir. İsrail kanalının 12-ci kanalının aydınlaşdırdığı kimi, kabinet üzvləri cavaba ehtiyac olduğunu şübhə altına almırlar. Mübahisələr onun əhatə dairəsi və vaxtı ilə bağlıdır. Eyni zamanda, İsrailin Kan telekanalı İsrail rəhbərliyinin aprelin 14-ü axşam saatlarında İrana zərbə endirməyi planlaşdırdığını bildirib. Lakin qərar Benyamin Netanyahu ilə ABŞ prezidenti Co Bayden arasında telefon danışığından sonra "son anda" ləğv edilib. Ağ Evin Milli Təhlükəsizlik Şurasının strateji kommunikasiyalar üzrə koordinatoru Con Kirbinin izah etdiyi kimi, cənab Bayden "İranın İsrailə qarşı hücumunun daha geniş regional münaqişəyə çevrilməsinin qarşısını almağa yönəlib".

"The Wall Street Journal"ın yazdığına görə, yəhudi dövləti İranın aprelin 15-i bazar ertəsi hücumlarına cavab verməyi düşünürdü. Bununla belə, ABŞ-a yenidən münaqişəni gərginləşdirə biləcək heç bir şey etməmək tövsiyə olunub. İsrail hökumətindəki CNN mənbələri qeyd edib ki, hökumət variant kimi İranın hərbi obyektinə zərbə endirməyi nəzərdən keçirir, lakin mümkünsə itkilərin qarşısını almaq üçün. Belə bir cavab, İsrail rəhbərliyinin fikrincə, İslam Respublikasına israillilərin hərbi üstünlüyünü nümayiş etdirmək üçün simvolik xarakter daşıyacaq. "The Washington Post" da eyni məlumatı yayıb. Nəşrin məlumatına görə, cənab Netanyahu orduya İranda zərbələr "siqnal göndərəcək", lakin çoxsaylı itkilərə səbəb olmayacaq hədəfləri seçməyi tapşırıb. Hətta kiberhücum da bir seçim kimi nəzərdən keçirilir.






Bu arada məlum olub ki, Tehran "duel"i davam etdirmək niyyətində deyil. Ölkənin Ali Milli Təhlükəsizlik Şurası aprelin 14-də bildirib ki, İslam Respublikası İsrailə qarşı əlavə hərbi əməliyyatlar planlaşdırmır, lakin İrana qarşı istənilən hücuma "ən azı on qat cavab" veriləcəyi barədə xəbərdarlıq edib.

### BMT Təhlükəsizlik Şurası İranın hücumuna necə cavab verdi?

Amerikanın "Axios" nəşri yazır ki, Ağ Ev məhz bundan qorxur – İrandan İsrailin mümkün cavabına genişmiqyaslı cavab. Vaşinqton israr edir ki, Tehranın hücumu əsasən simvolik xarakter daşıyır: İran bölgədəki vasitəçiləri ilə ABŞ-ı gözlənilən hücumla bağlı əvvəlcədən xəbərdar edib (Vaşinqton bunu inkar etsə də), pilotsuz təyyarələr ən azı üç saat İsrail ərazisinə uçub. Bütün bunlar İsrailə və onun müttəfiqlərinə hücumu hazırlamağa və dəf etməyə imkan verdi. İsrail ordusunun sözçüsü Daniel Həqarinin sözlərinə görə, İsrail müttəfiqləri ilə birlikdə İranın atdığı 350 pilotsuz təyyarə, qanadlı raket və ballistik raketlərin hamısını ələ keçirə bilib.

Axios qeyd edib ki, İsrailin sonrakı hücumlara qarşı belə koordinasiyalı müdafiəsinin uğurunu təkrarlamaq daha çətin olacaq və bu, həm də tammiqyaslı regional müharibə riskini artırır, deyə Ağ Ev qorxur. Bu arada, Hizbullah qruplaşmasının mövqelərini yayımlayan Livanın Əl-Əxbar qəzeti İranın zərbəsindən sonra yazıb ki, Tehranın "təmkinli" zərbəsi əsasən xəbərdarlıq xarakteri daşıyır. Nəşr vurğulayır ki, İslam Respublikası diplomatik obyektlərə hücum etməklə İsrailə mütənasib şəkildə cavab verə bilər, lakin bu, çoxlu sayda insan tələfatına səbəb olacaq və beynəlxalq hüququ pozacaq. "Əl-Əxbar"ın müəllifləri iddia edirlər ki, "Livandan belə sayda pilotsuz təyyarələr və raketlər buraxılsaydı, nə baş verərdi, bunu təsəvvür etmək kifayətdir".

Jena Universitetinin (Almaniya) Münaqişələrin Tədqiqi İnstitutunun rəhbəri İyad Muhsen Al-Dajani də müsahibəsində qeyd edib: "Əgər İran həqiqətən də İsraili vurmaq istəsəydi, Livan, İraq, Yəmən və Suriyadakı bütün proksi şəbəkəsindən istifadə edərdi. Məqsəd mümkün nəticələrin miqyasını göstərmək idi. Bu, İsrailin münaqişəni davam etdirməklə növbəti səhvə yol verməməsi üçün qabaqlayıcı hücum idi".

İranın hücumuna dərhal cavab verməyə çalışanlar arasında hərbi kabinetin əsas üzvü, keçmiş müdafiə naziri

Benni Qantz da var. Axios portalı mənbələrə istinadən xəbər verir ki, İrana mümkün qədər tez zərbə endirməyə çağıran cənab Gantz olub, lakin baş nazir Netanyahu bundan imtina edib.

### İranın İsrailə hücumuna dünya necə reaksiya verdi?

Benni Qantz təcili reaksiya verilməsi zərurətini İsrailin hazırda maksimum beynəlxalq dəstək alması ilə əsaslandırıb və xatırladıb ki, ABŞ, Böyük Britaniya və Fransa yəhudi dövlətinə İranın atəşini dəf etməkdə kömək ediblər. Hətta İordaniya da kömək etdi: Fransa prezidenti Emmanuel Makron aprelin 15-də Əmmanın Parisdən krallığın hava məkanını qorumaq və İran pilotsuz təyyarələrini vurmağı xahiş etdiyini bildirib. "Dünən dünya açıq şəkildə təhlükə qarşısında İsrailin tərəfini tutdu. Bu, İsrailin təhlükəsizliyini təmin etmək üçün istifadə etməli olduğumuz strateji nailiyyətdir", - Benni Qantz vurğulayıb. Eyni zamanda siyasətçi "hadisələrin hələ bitmədiyini" açıqlayıb. Onun sözlərinə görə, İsrail regional koalisiya yaratmaq və "bizim seçdiyimiz zaman və necə bədəli İrana ödəmək" niyyətindədir. Siyasətçi bu koalisiyaya kimin daxil olacağını açıqlamayıb.

Bu arada, dövlət katibi Antoni Blinken aprelin 15-də bildirib ki, Birləşmiş Ştatlar son 36 saat ərzində "eskalasiyanın qarşısını almağa çalışmaq üçün diplomatik cavabı koordinasiya edir". Lakin o, bu cür cavabın təfərrüatlarını açıqlamayıb.

Maraqlıdır ki, Moskva da diplomatik addımların tərəfdarıdır. Rusiya Təhlükəsizlik Şurasının rəhbəri Nikolay Patruşev aprelin 15-də israilli həmkarı Tzahi Haneqbi ilə söhbətində "Rusiya mübahisələrin yalnız siyasi və diplomatik yollarla həllində israrlı olduğunu" vurğulayıb. Bununla belə, ABŞ və Rusiya Federasiyası yəqin ki, siyasi və diplomatik vasitələri bir qədər fərqli qəbul edir. Kan kanalının məlumatına görə, Vaşinqton İslam Respublikasına qarşı sanksiyaların sərtləşdirilməsini və İranı dünya səhnəsində daha da təcrid etməyi düşünə bilər. Və çətin ki, bu, Moskvada dəstəklənsin.

Tədbirlərdən biri İslam İnqilabı Keşikçiləri Korpusunun (İİKK) BMT-nin qara siyahısına salınması ola bilər. Aprelin 14-də BMT Təhlükəsizlik Şurasının İranın İsrailə hücumuna həsr olunmuş iclasında yəhudi dövlətinin daimi nümayəndəsi Gilad Erdan SEPAH-ı terror təşkilatı elan etməyə çağırıb. Lakin Rusiyanın mövqeyini nəzərə alsaq, bu ssenari də çətin ki baş tutsun.

Ardı Səh. 6

RAKURS

# İsrail-İran
## savaşı, yoxsa...

Əvvəli Səh. 5

Başqa bir variant: İsrail İranın hücumundan Qəzza zolağında Rəfaha hücum etmək üçün istifadə edə bilər, ABŞ-ın da son həftələr ondan çəkindirdiyi İsrailli politoloq Zeev Hanin deyir. Onun sözlərinə görə, İsrail İrana cavab verməyi yox, vəziyyətdən istifadə edərək Rəfahda hərəkət azadlığı əldə etməyi seçə bilər.

Lakin hələlik hadisələr bu variantın xeyrinə deyil, aprelin 15-də CNN baş nazir Netanyahunun İrana cavabı nəzərdən keçirərkən Rəfahdakı hərbi əməliyyatı qeyri-müəyyən müddətə təxirə salmaq qərarına gəldiyini bildirib. Eyni zamanda, telekanalın məlumatına görə, İsrail rəhbərliyi bu həftə Rəfahda əməliyyat keçirməyi planlaşdırıb.



### Bu arada

Co Bayden aprelin 15-də açıq şəkildə bildirib ki, Birləşmiş Ştatlar İranın hücumunu İsrailin Rəfah əməliyyatı üçün güzəşt hesab etmir. Ağ Evdə İraqın baş naziri Məhəmməd əl-Sudani ilə danışıqlardan əvvəl Amerika lideri bildirib ki, Vaşinqton Qəzza zolağında atəşkəs razılaşması əldə etmək niyyətindədir və bu, HƏMAS-ın əlində olan girovların azad edilməsinə və münaqişənin genişlənməsinin qarşısını alacaq.

İranın zərbələri, demokratlar və respublikaçılar arasında qarşıdurma arasında birbaşa gərginlik demokratların səylərini sarsıtmaqla hədələyir və çox yersiz olardı, çünki hazırda cənab Baydenin Vaşinqtonun İsrailin Qəzzadakı hərəkətlərinə rəsmi dəstəyi ilə korlanmış reytinqləri bərpa olunmağa başlayıb.

Ağ Evin bu reaksiyası dərhal İsraili dəstəkləməkdə ənənəvi olaraq daha fəal olan respublikaçıların sərt tənqidinə səbəb olub. Nümayəndələr Palatasının spikeri Mayk Conson hətta deyib ki, Bayden administrasiyasının "bu dəhşətli hadisələrə səbəb olan İsrailə qarşı təxribatı və İranı sakitləşdirməsi" olub. Siyasətçi bu cür qiymətləndirmələrdə Respublikaçılar Partiyasından prezidentliyə namizəd Donald Trampla üst-üstə düşüb və o, əmin edib ki, o, hakimiyyətdə olsaydı, İsrailə hücum olmazdı.

Nümayəndələr Palatasının Kəşfiyyat Komitəsinin sədri, ardıcıl olaraq Ukraynaya yardımın tərəfdarı olan respublikaçı Mayk Turner əmin edib ki, "Ukrayna özünü müdafiə etmək qabiliyyətini itirməyə başlayır" və buna görə də "ABŞ irəli addım atmalı və Ukraynaya silah verməlidir". "Düşünürəm ki, bu həftə Nümayəndələr Palatasında bu məsələyə böyük dəstək görəcəyik" deyib.

Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsinin sədri Michael McCaul də bu məsələdə onu dəstəkləyərək qeyd edib ki, Birləşmiş Ştatların "artıq vaxtı yoxdur" və "buna son qoymalı", yəni bütün müttəfiqlərə pul ayırmalıdır.






İranın İsrailə hücumu Vaşinqtonda daxili siyasi qarşıdurmanın yeni mərhələsinə səbəb olub. Altı aydan çoxdur ki, müttəfiqlər üçün Ukrayna və İsrail üçün pul da daxil olmaqla, çoxmilyardlıq yardım paketi ilə bağlı razılığa gələ bilməyən demokratlar və respublikaçılar, İranın zərbələrinə kimin cavabının həqiqətən də yəhudi dövlət tərəfdaşına layiq olduğunu mübahisə etməyə başlayıblar. Eyni zamanda, Tehranın zərbələri, görünür, Respublikaçılar Nümayəndələr Palatasının spikeri Mayk Consonu müttəfiqlərin maliyyələşdirmə qanun layihəsini səsverməyə çıxarmağa vadar edib, baxmayaraq ki, o, bu günlərdə İsraildən başqa heç nə haqqında danışa bilmir.

Necə ki, oktyabrın 7-də İslam radikal HƏMAS hərəkatının yaraqlıları İsraildə qətliam törətdikdə, aprelin 14-nə keçən gecə İranın yəhudi dövlətinə hücumu Vaşinqtonda Tehranın hərəkətlərinin birmənalı şəkildə pislənməsinə səbəb oldu. Həm demokratlar, həm də respublikaçılar İslam Respublikasının əsassız təcavüz aktı törətdiyi qənaətinə gəliblər (baxmayaraq ki, İsrail iki həftə əvvəl İranın Dəməşqdəki konsulluğuna zərbə endirib) və İsrailə tam dəstək ifadə ediblər. Bununla belə, onların hadisələri qavrayışlarının ümumiliyi burada sona çatır.



### Bayden tərəddüd edir

ABŞ prezidenti Co Bayden və onun administrasiyası aprelin 14-ü bütün gününü İsraili İrana qarşı cavab tədbirləri görməkdən çəkindirməyə çalışaraq, Baş nazir Benyamin Netanyahuya pilotsuz təyyarələrin və raketlərin 99%-nin tutulması faktı ilə kifayətlənməsini bildirib. Ağ Evin fikrincə, belə bir nəticə ilə hücumu dəf etmək özlüyündə qələbə idi və ona görə də Yaxın Şərqdə onsuz da gərgin olan vəziyyəti gərginləşdirə biləcək hər hansı cavab tədbiri tələb etmir.

Politico xəbər verir ki, İsrailə hücumdan sonra ABŞ administrasiyası Co Baydenin fövqəladə çıxışının mümkünlüyünü müzakirə etmək üçün iclas keçirib. Lakin sonda Ağ Ev qərara gəlib ki, prezidentin xalqa ayrıca müraciəti əvəzinə, Oval kabinetin sahibi ictimai fəallığını azaltsa, daha yaxşı olar. Cənab Baydenin müşavirləri və köməkçiləri belə qənaətə gəliblər ki, televiziya müraciəti gərginliyi artıra və Tehranı təhrik edə bilər, çünki administrasiya İsrail-İran münaqişəsinin genişmiqyaslı hərbi toqquşmaya çevrilməsinin qarşısını almağa çalışır.

Maraqlıdır ki, oktyabrın 7-də HƏMAS-ın hücumundan sonra Co Bayden Benyamin Netanyahu ilə görüşüb, açıq şəkildə İsrailin baş nazirini qucaqlayıb və xalqa müraciət edib ki, bir çox ekspertlər bunu ABŞ prezidentinin indiyə qədər etdiyi ən İsrailyönlü çıxışlardan biri hesab ediblər. İndi vəziyyət tamam başqa idi. İsrailin Qəzza zolağındakı əməliyyatı xeyli uzandı və mülki insanlar arasında ciddi itkilərə səbəb oldu ki, bu da noyabrın 5-də Amerikanın keçmiş lideri, respublikaçı Donald Trampla ABŞ prezidentliyi uğrunda mübarizə aparacaq cənab Baydenin reytinqlərinə mənfi təsir etdi. Demokratik administrasiya İsrailin özünümüdafiə hüququnu açıq şəkildə dəstəkləməklə yanaşı, son aylarda Benyamin Netanyahunu Qəzzada döyüşləri dayandırmaq üçün fəal, lakin uğursuz şəkildə itələdi. İsrail və İran

Reuters agentliyinin məlumatına görə, ABŞ tərəfdaşlarına yardım paketi, o cümlədən Ukraynanın maliyyələşdirilməsi Nümayəndələr Palatasında nəzərdən keçirilərsə, hər iki partiyadan olan konqresmenlərin 70%-ə qədər səsini toplaya bilər.

Düzdür, müvafiq qanun layihəsinin səsverməyə çıxarılıb-çıxarılmamasından asılı olan Mayk Conson heç bir şəkildə Ukraynanı qeyd etmədən Nümayəndələr Palatası qarşısında İsrailə hərbi yardım göstərilməsi məsələsini qaldıracağına söz verib. Bəziləri onun sözlərini müttəfiqlərə, o cümlədən Ukraynaya kömək üçün qanun layihəsini səsverməyə çıxarmağa hazır olması kimi şərh ediblər, baxmayaraq ki, respublikaçı Marcori Taylor Greene əvvəllər Kiyevə pul ayırma prosesinə başlayarsa, Mayk Consonun istefası ilə hədələmişdi. Bununla belə, cənab Consonun "daha bir cəhd"lə bağlı açıqlaması Nümayəndələr Palatasının 2023-cü ilin noyabrında İsrailə 14,3 milyard dollar ayırması ilə bağlı ayrıca sənəd qəbul etməsinə işarə edir Ukrayna üçün vəsait çatışmazlığı. Lakin spiker yenidən Kiyevə yardımı təxirə salmaq və onu İsrailə dəstəkdən ayırmaq qərarına gəlsəydi, o zaman belə bir qanun layihəsinin Konqresdən keçməsi ehtimalı indi noyabrda olduğundan daha aşağı olacaq.

Yaxın Şərqdə nisbi sakitlik olsa da, bu, tufandan əvvəlki vəziyyəti xatırladır. İsrail-İran, yoxsa III Dünya müharibəsi olacaq, bunu söyləmək çətindir, amma bütün proqnozlar böyük müharibənin anonsunu verir...

***V.VƏLİYEV***



# Müharibələr meydanına çevrilən dünyanın TƏHLÜKƏSİZLİK ADASI

***Dünyada baş verənlər, münaqişə ocaqları, bir sıra ölkələr arasında davam edən müharibələr təsdiq edir ki, bu, artıq Üçüncü Dünya müharibəsinin başlanması deməkdir. Rusiya-Ukrayna, İsrail-Fələstin, İsrail-İran müharibələri, Afrikada gərginliklər və eləcə də Qərbin məhz münaqişə ocaqlarını qızışdırması, onların sayının günbəgün artması artıq Üçüncü Dünya müharibəsinin başladığını bir daha təsdiq edir. Qarşıdurmaların dərinləşməkdə olduğu artıq göz önündədir və bütün bunların fonunda deyilənlərin əksini fərz etmək belə mümkün deyil.***

## Qlobal müharibənin olacağı barədə əminlik getdikcə artmaqdadır

Hazırda dünyada 100-ə yaxın aktiv münaqişə ocağının olması cərəyan edən mürəkkəb proseslərin əsasını təşkil edir. Həmin münaqişə ocaqlarının reallığa çevrilmə təhlükəsinin günbəgün artmasını təsəvvür edəndə isə bütün dünyada vəziyyətin düşünüldüyündən də kritik olma ehtimalı qənaətinə gəlinir. Məhz bu səbəbdəndir ki, qlobal müharibənin olacağı barədə əminlik artıq getdikcə artmaqdadır. Nümunə üçün qeyd edək ki, Amerikalıların 64, britaniyalıların isə 61 faizi gələcəkdə yeni qlobal müharibənin olacağına tam əmindirlər. Hər halda "yeni dünya düzəni" ifadəsi son zamanlar təsadüfi işlədilmir və bu ifadənin artıq elə qlobal miqyasda mütəmadi şəkildə istifadə edilməsi deyilənləri bir daha təsdiq edir. Təsdiq edir ki, tezliklə həqiqətən də dünyanın tamamilə yeni düzəni ilə qarşılaşmalı və hər kəs də bunu qəbul etməli olacaq.

## "İndi faktiki olaraq Üçüncü Dünya müharibəsi gedir"

Ölkə rəhbərimizin, cənab Prezident İlham Əliyevin də bu barədə, məhz dünyada baş verən mürəkkəb proseslər barədə iqtibasları da tam yerinə düşür və reallığı əks etdirir. "İndi faktiki olaraq Üçüncü Dünya müharibəsi gedir, kim bunu necə adlandırır adlandırsın. Bu münaqişəyə qoşulan ölkələrin sayına baxsaq, görərik ki, bu, faktiki olaraq Üçüncü Dünya müharibəsidir, amma yeni üsulla aparılır, Birinci Dünya müharibəsindən də, İkinci Dünya müharibəsindən də fərqlənir", deyə yerli kanallara müsahibəsində bildirən cənab Prezident İlham Əliyev dünyada mövcud vəziyyəti uzaqgörənliklə təhlil edib və reallıqların nədən ibarət olduğunu ictimaiyyətin diqqətinə çatdırıb. Ölkə rəhbərimiz dünyanın qütbləşdiyini və qarşıdurmaların dərinləşməkdə olduğunu da bildirib. Sözsüz ki, dövlətimizin başçısının dedikləri zərrə qədər şübhə doğurmur və həmin reallıqlar artıq çoxdandır ki, göz önündədir.

## İranın İsraillə müharibə vəziyyətində olması fonunda gərginlik bir qədər də artıb və hələ də artmaqdadır

İranın İsrailə 300-ə yaxın raket və pilotsuz uçuş aparatı atması heç də sıradan bir hadisə deyil. Doğrudur, brifinq zamanı İsrail ordusunun nümayəndəsi Daniel Hagari onların 99 faizinin zərərsizləşdirildiyini bildirib, amma bu, heç də vəziyyətin nə dərəcədə ciddi olduğuna zərrə qədər də şübhə yarada bilməz. Çünki artıq iki ölkə arasında vəziyyətin kritik həddə olduğu qətiyyən təkzib edilmir. Onsuz da Qərbin Ukraynanı qızışdırması və Rusiyaya qarşı qoyması, illərdir iki ölkə arasında davam edən müharibə fonunda narahatlıq kifayət qədər idi və bu məqamda bir tərəfdən də İranın İsraillə müharibə vəziyyətinə gəlməsi artıq ciddi şəkildə narahatlıq doğurur. Ona görə ki, belə bir məqamda daha bir müharibə dünyada xaosun, qarşıdurmaların, itgilərin, tələfatların artmasına əsaslı zəmin yaradır. Nəzərə alsaq ki, Rusiya-Ukrayna müharibəsinin hələ də davam etməsi və Qərbin ruslara təzyiqləri fonunda nüvə silahından istifadə təhlükəsi indi də qalmaqdadır, deməli, faciəli nəticələrə səbəb ola bilən məqamlar qətiyyən aradan qaldırılmayıb. Əksinə, İranın İsraillə müharibə vəziyyətində olması fonunda gərginlik bir qədər də artıb və hələ də artmaqdadır. Sadalananlar elə Üçüncü Dünya müharibəsinin elementləri olaraq qəbul olunur və vəziyyətin təhlili göstərir ki, həmin müharibə artıq başlayıb.

## Dünyadakı gərginliyin, qanlı toqquşmaların fonunda Azərbaycan təhlükəsizliyin, sabitliyin təminatçısı kimi tanınır

Öz gücü, öz potensialı ilə ən qısa zamanda, cəmi 44 gün ərzində ərazilərini işğaldan azad edən və dünya miqyasında mövqeyini daha da möhkəmləndirən Azərbaycan regionda yeni reallıqlar yaratmaqla yanaşı, sülhün, sabitliyin tam bərqərar olunması istiqamətində mühüm adımlar atmaqdadır. Bütün dünyada müşahidə olunan gərginliyin, mürəkkəb proseslərin, qanlı toqquşmaların fonunda Azərbaycan regionda təhlükəsizliyin, sabitliyin təminatçısı kimi tanınır. Sözsüz ki, ölkəmizin təhlükəsizlik, sabitlik adası kimi tanınması Prezident İlham Əliyevin həyata keçirdiyi düşünülmüş balanslı siyasət sayəsində mümkün olub və bunu bütün dünya liderləri də çox yaxşı bilirlər, eləcə də etiraf edirlər. Onu da etiraf edirlər ki, Azərbaycan özünün ən sabit, ən dayanıqlı inkişaf mərhələsindədir. Görünür elə buna görə də bəzi Qərb dairələri ölkəmizə qarşı qısqanclıq hissi keçirir və açıq-aşkar rəqib kimi çıxış edirlər. Həmin dairələr işğalçı ölkə olan Ermənistanı silahlandırmaqla vəziyyətə müdaxilə etmək, hətta təhlükəsizliyə, sabitliyə xələl gətirmək istəyirlər. Təbii ki, onlar bunu öz maraqları naminə edirlər və guya dırnaqarası "təhlükəsizlik zəmanəti" adı altında bütün çirkin əməllərə əl atırlar və ölkəmiz tərəfindən yaradılan, təmin edilən təhlükəsizliyə də, sabitliyə də zərbə vurmağa çalışırlar. Avropada da belə çirkin əməllərdə maraqlı ölkələr, ölkə rəhbərləri var. Məsələn, Fransa dövləti, şəxsən prezident Emmanuel Makron Azərbaycanın uğurlarını həzm edə bilmir və ölkəmizin istənilən istiqamətdə inkişafına, nailiyyətlərinə mane olmaq üçün bütün gücünü səfərbər edir. Rəsmi Paris artıq Cənubu Qafqaza müdaxilələr etmək üçün bütün imkanlarından istifadə etməyə çalışır. Amma buna nail ola bilmir və ölkəmiz qətiyyətlə, əzmlə təhlükəsizliyin, sabitliyin təminatçısı olaraq çıxış edir.

## Ölkəmizin nailiyyətlərini həzm edə bilməyənlər çirkin niyyətlərini həyata keçirmək üçün Ermənistanı alət etməkdədirlər

Ölkəmizin əleyhinə olan dairələr şərti sərhəddə NATO funksiyasını yerinə yetirən Aİ-nin dırnaqarası "mülki" missiyanın, əslində isə hərbi əməkdaşlarının sayını artırır, bununla da təcavüzkar ölkənin əli ilə regionda yeni müharibə ocağı yaratmaq üçün əldən-ayaqdan gedirlər. Ümumiyyətlə, ölkəmizin istər 44 günlük müharibə dönəmindəki, istər 23 saatlıq anti-terror tədbirlərindəki, istərsə də ondan sonrakı dövrdə uğurlarını həzm edə bilməyənlər Ermənistanı yenidən münaqişəyə, müharibəyə sürükləyirlər. Bütün dünyanın düz üçdə bir əsr müddətində həll edə bilmədiyi məsələni Azərbaycanın cəmi 44 gün və bir də 23 saat ərzində həll etməsini hələ də həzm edə bilməyənlər ölkəmizə qarşı hansısa çirkin niyyətlərini həyata keçirmək üçün Ermənistanı alət etməkdədirlər. Ermənistan artıq marionet ölkə kimi tanınmaqdadır və rəsmi İrəvanın alət olaraq istifadə edilməsi ilə Cənubi Qafqazda müharibə ocağı saxlamaq niyyətində olanlar öz çirkin niyyətlərini reallaşdırmağa çalışırlar. Onların səylərinin 5 aprel tarixində Brüsseldə keçirilən ABŞ-Avropa İttifaqı-Ermənistan müştərək konfransından sonra daha da intensivləşdiyi də müşahidə edilməkdədir. Sərti sərhəddə Ermənistan tərəfindən son günlərdə törədilən təxribatların belə, Qərbin fəallığının nəticəsi olduğu zərrə qədər şübhə doğura bilməz, çünki 44 günlük müharibədən və 23 saatlıq anti-terror tədbirlərindən sonra bu təxribatlara Ermənistanın özbaşına cəsarət edə bilməyəcəyi bəlli məsələdir. Baxmayaraq ki, bütün sualların və problemlərin iki ölkənin birgə müzakirələri ilə həll olunmalı olduğunu Azərbaycan dəfələrlə bəyan edib, üçüncü dövlətlər və özlərini guya vasitəçi kimi sırımağa çalışanlar məsələyə müdaxilə edirlər və bilərəkdən vəziyyəti gərginləşdirirlər. Xatırladaq ki, cənab Prezidenti İlham Əliyev ABŞ Dövlət katibi Blinkenlə telefon danışığı zamanı qeyri-şəffaf hazırlanan, qeyri-inklüziv xarakter daşıyan və Azərbaycanın haqlı iradlarına səbəb olan görüşün təxirə salınmamasının bölgədə gərginliyin artmasına səbəb olacağını bildirmişdi. Amma Qərb, Avropa İttifaqı öz bildiyini etməkdə israrlıdırsa, deməli, qətiyyən bölgədə sülhə, tərəflər arasında etimad mühitinə, inteqrasiyaya heç biri maraqlı deyil və destruktivliyə, eləcə də sülh danışıqlarını sıradan çıxarmağa hər biri can atır.

## "Azərbaycan bu gün dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır və bu, bizim böyük nailiyyətimizdir"

Qeyd edək ki, hansısa qüvvələr, hansısa ölkələr Azərbaycana mane olmaq üçün nə qədər can atsalar da buna nail ola bilməzlər və bilmirlər. Əksinə, Azərbaycan artıq mütəmadi olaraq, bir-birinin ardınca istədiyinə nail olmaqdadır. Çünki ölkəmizin keçdiyi yol, inkişaf sürəti, əldə edilən nəticələr bizi daim nailiyyətlərə doğru aparır. Bu yolda real hədəf də bəllidir və milli maraqlarımızın təmin edilməsi istiqamətində istər siyasi, istər iqtisadi, istər hərbi, istərsə də diplomatik imkanlarımız yetərincədir. Ölkəmizdə olan sabitlik, təhlükəsizlik mühiti artıq tam əminlik yaradır. Dövlətimiz daxili risklərin hamısını aradan qaldırıb və xarici risklərdən də qoruna bilib. Xatırladığımız kimi, cənab Prezident İlham Əliyev andiçmə mərasimində bu barədə xüsusi vurğulayıb və uğurlarımızın əsas şərti barədə də diqqətə çatdırıb. "Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir. Ona görə xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir. Azərbaycan bu gün dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır və bu, bizim böyük nailiyyətimizdir", deyə bəyan edən dövlət başçımız bununla bütün dünyaya çox ciddi mesaj ünvanlayıb. Bu mesajda bildirilir ki, dünyanın ayrı-ayrı ölkələrində qarşıdurmalar, gərginliklər, silahlı münaqişələr, toqquşmalar müşahidə edildiyi bir zamanda Azərbaycan bütün beynəlxalq aləmdə sabitlik məkanı kimi tanınır. Bildirilir ki, ölkəmiz bütün istiqamətlərdə inkişaf edən ölkə olaraq qəbul edilir. Sözsüz ki, o da qəbul edilir ki, bütün bunlar, bu nailiyyətlər, daxili sabitlik məhz cənab Prezident İlham Əliyevin yürütdüyü siyasət sayəsində reallaşıb. Məhz bu nailiyyətlər, bu imkanlar, bu potensial və bu siyasət sayəsində, milli birliyimiz, xalq-iqtidar birliyi sayəsində Azərbaycan bütün müdaxilələrə cavab vermək, öz təhlükəsizliyini, sabitliyini, stabilliyini qorumaq əzmindədir və ölkəmiz Qərbin, hansısa dairələrin regionu müharibəyə sürükləməsinə hər zaman kəskin etirazını bildirir.

## Qonşu dövlətlər də regionda vəziyyəti gərginləşdirmək istəyənlərə davamlı olaraq etiraz edirlər

Təkcə ölkəmiz deyil, Türkiyə, Rusiya kimi ölkələr də Qərbin Cənubi Qafqazı müharibəyə sürükləməsinə öz etirazlarını, narazılıqlarını hər zaman bildiriblər. Türkiyə də, Rusiya da regionda vəziyyəti gərginləşdirmək istəyənlərə davamlı olaraq yenə də etiraz edirlər. Çünki regionda vəziyyətin gərginləşməsinin heç də yaxşı nəticələr vəd etmədiyi, təhlükəsizliyə, sabitliyə təhdid olduğu bəlli məsələdir. Ona görə də həmin ölkələr yeni status-kvo və hərbi paktın yaradılmasına yönəlmiş 5 aperl görüşü ilə bağlı rəsmi mövqelərini açıq şəkildə ortaya qoymaqdan çəkinmirlər. Doğrudur, qonşu dövlətlər arasında kəskin şəkildə mövqe birdirməkdən çəkinən təkcə İrandır və bu ölkənin məqsədi də təcavüzkar Ermənistanla əməkdaşlığı getdikcə dərinləşdirmək, Zəngəzur dəhlizinin açılmasına maneələr törətməkdir. Amma bununla belə İranın ali rəhbərinin beynəlxalq məsələlər üzrə müşaviri Əli Əkbər Vilayəti belə öz müsahibəsində qeyd edib ki, Avropa İttifaqı, ABŞ və NATO-nun Cənubi Qafqazla bağlı son qərarı heç bir halda həyata keçməyəcək və bu cür hərəkətlər dünyanın kritik bölgələrində gərginlik yaratmaqdan və məhv etmək bahasına hərbi mövcudluğa bəhanə axtarmaqdan başqa məqsəd daşımır. Bir sözlə, İran özü də xəfif şəkildə də olsa öz etirazını bildirib. Çünki gərginlik heç də yaxşı nəticələr vəd etmir və xüsusən də region ölkələri üçün bu məqam daha böyük diqqət tələb edir.

## Azərbaycan regionda sabitləşdirici faktor kimi çıxış etdiyini bəyan edir

Region üçün mənfi nəticələr vəd edən istənilən addım və planlara qarşı Azərbaycanın qəti şəkildə narazılığının bütün dünya dəfələrlə şahidi olub. Çünki ölkəmiz Cənubi Qafqazda istənilən çirkin niyyətlərə, ələlxüsus da sülhün, sabitliyin, stabilliyin pozulmasına hesablanan bütün əməllərə qarşıdır. Ona görə də bununla bağlı öz mövqeyini də açıq şəkildə ortaya qoyur və buna iradəsi də, əzmi də çatır. Hətta Azərbaycan regionda sabitləşdirici faktor kimi çıxış etdiyini belə açıq şəkildə bəyan edir və bu da o deməkdir ki, heç bir qüvvə Cənubi Qafqazda vəziyyətin gərginləşdirilməsinə nail ola bilməz. Nə qədər müdaxilə etmək cəhdləri olsa belə Azərbaycan sülh və sabitlik naminə bütün imkanlarını səfərbər edərək, istənilən arzuolunmaz halın, xüsusən də sabitliyin pozulması hallarının qarşısını almaq əzmindədir.

***İnam Hacıyev***

# Mədəniyyətə həsr olunmuş 47 il

## Müsahibimiz teatrşünas, dramaturq Çingiz Ələsgərlidir

***Yaşı 70-i haqlayan və ömrünün 47 ilini milli mədəniyyətimizə həsr etmiş Çingiz Ələsgərli ilə həmsöhbət olub, onun keçdiyi həyat və sənət yoluna qısa da olsa nəzər saldıq. Yaradıcılıq yoluna izlər salan məqamları səhifələyərək və oxucularımıza təqdim edirik. Müsahibimizin dili ilə tərcümeyi-halından ilk ştrixlər...***

- Mən müxtəlif idarə və vəzifələrdə əsasən, mədəniyyət sahəsində işləmişəm. Axırıncı iş yerim Akademik Milli Dram Dram Teatrı olub. Keçən ilin oktyabar ayına qədər Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında ədəbi dram hissəsinin rəhbəri vəzifəsində işləmişəm. Teatrın direktoru- bədii rəhbəri işləmiş, rejissor, xalq artisti, professor Azər Paşa Nemətov dünyasını dəyişəndən sonra, onun yerinə rejissor Mehriban Ələkbərzadə təyin olundu və təbii ki, mən pensiya yaşımla bağlı tutduğum vəzifədən uzaqlaşdırıldım.

***- Maraqlıdır, illərini sənətə həsr edən insan üçün ömrün kamil. ahıl çağında yaradıcılıq dünyasından kənarda yaşamaq çətin deyil ki?***

- Əlbəttə ki, bu Mədəniyyət Nazirliyinin yaş məhdudiyyəti ilə bağlı məktubu ilə bağlıdır. Qanun hər kəs üçün qanundur. Qanunun qarşısında boynumuz qıldan incədir. Amma mənim subyektiv fikrimə qalırsa, bunu düzgün hesab etmirəm. Statistik hesablamalara görə respublikada 60 mindən yuxarı pensiyaçı əmək fəaliyyətini davam etdirir. İş qabiliyyətini itirməyən, işlədiyi sahədə onillərin təcrübəsini toplamış insan işləyib, milli mədəniyyətin inkişafına öz töhfəsini versə, bunu nəyi pisdir? Gənclər bizim gələcəyimizdir. Mən gənclərə inanıram və həmişə onları dəstəkləyirəm. Amma,..

***- Nə amma?***

- Amma odur ki, işləyə bilən yaşlı insanın işləməsində nə qəbahət ola bilər? Mən yeni rəhbərliyin nümayəndələrinə də bunu dedim. Mən başa düşürəm, yeni rəhbərlik təbii ki, yeni komanda ilə işləməyə üstünlük verir. Olsun,.. Bilənlər bilir ki, ədəbi dram hissəsinin rəhbəri vəzifəsi teatrda əsas vəzifələrdən biridir. Azərbaycan Dram Teatrının ədəbi dram hissəsinin müdiri vəzifəsində vaxtı ilə tanınmış simalar Cəfər Cabbarlı, Sabit Rəhman, Adil Babayev, Qeybulla Rəsulov, Şaiq Səfərov və digər görkəmli şəxslər çalışıblar. Cəfər Cabbarlı və digərləri işləyən vaxtlarda teatrın baş rejissorları onlarla hesablaşıblar. Teatrın repertuarı əvvəllər həmişə bədii rəhbərin və ya baş rejissorun iradəsi əsasında qurulurdu. Bu gün isə, yaxşı ki, vəziyyət dəyişib. Bu söhbətimizi uzada bilərdik. Amma problem Mədəniyyət Nazirliyi tərəfindən artıq həllini tapdığı üçün, bu məsələ üzərində dayanmaq istəmirik. Hazırda Mədəniyyət Nazirliyi yanında teatr-tamaşa müəssisələrinin illik repertuarının və dövlət sifarişi əsasında hazırlanan tamaşaların məzmununun qiymətləndirilməsi üzrə ekspert şurası fəaliyyət göstərir. Artıq bu vacib problem həllini tapıb. Peşəkalardan ibarət işlək şura teatrların repertuar siyasətini həll edəcək. Mən buna inanıram.

***- Yaxşı bir haldır. Bəs bu gün yaradıcı qələminizdən necə istifadə edirsiniz?***

- Mənim işim yazmaqdır. Mədəniyyət Nazirliyində də, Teatr Xadimləri İttifaqında da, Akademik Dövlət Dram Teatrında işlədiyim vaxtlarda da yazırdım, bu gün də yazıram. Mən hər şeyi bir tərəfə qoyub deməliyəm ki, teatr adlı möcüzə haqqında nə desən, nə yazsan, yenə azdır. Teatr çox qədim tarixə malik olsa da həmişə cavan, həmişə canlı, həmişə cəlbedicidir. Teatr tamaşası mövzusundan və janrından asılı olmayaraq oynanılan anda möcüzədir. Teatrlarda rejissorlar birbirlərini əvəz etsələr də teatr səhnəsinin şahı aktyordur. Aktyor olmasa teatr tamaşası adlanan möcüzə də yoxdur. Mən teatr haqqında düşüncələrimi bölüşmək istəyirəm. Hamımız yaxşı bilirik ki, teatr sintetik sənət, yeni sənətlər toplusudur. Yüksək peşəkar



səviyyədə işlənmiş dram əsəri, əsərin dövrlə səsləşən maraqlı səhnə həllini kəşf edən rejissor, əsərin musiqi həllini yaradan bəstəkar, səhnə görünüşünü kəşf edən rəssam, tamaşaçı qəlbini fəth edən yüksək peşəkar səviyyəli aktyor oyunu və sonda tamaşaçı reaksiyası...

***- Bu, təbii prosesdir və belə də olmalıdır. Amma müasir teatr sahəsində vəziyyət necədir?***

- Milli teatr sənətinin problemləri çoxdur. Ölkədə 30-a yaxın, daha dəqiq desək, 27 dövlət teatrı fəaliyyət göstərir. Bir neçə müstəqil teatr da tamaşalarını hazırlayaraq, ümumi görüntüdə fərqlilik yaratmağa çalışır. Nəyi pisdir ki, olsun. Amma,.. nə dövlət, nə də qeyri-dövlət teatlarının hazırladıqları tamaşaların, yuxarıda qeyd etdiyim kimi, heç biri, təəssüf ki, hadisəyə çevrilə bilmir.

***- Bu qədər sayda teatrların ölkəmizdə olduğu halda, nəyə görə müasir dövrümüzdə hadisəyə çevrilən tamaşaya göz şahidliyi edə bilmirik?***

- Ya zaman dəyişib, ya da biz. Amma vaxtı ilə hadisəyə çevrilən tamaşalar olub. Adil İskəndərovun, Mehdi Məmmədovun, Tofiq Kazımovun, sonralar Hüseynağa Atakişiyevin, Azər Paşa Nemətovun, Vaqif Abbasovun, Vaqif İbrahimoğlunun və digərlərinin tamaşaları hadisəyə çevrilərək, uzun müddət müzakirələrə səbəb olurdu. Bu gün hadisəyə çevrilmiş tamaşalara təəssüf ki, rast gəlmirik. 27 teatr dövlət büdcəsindən maliyyələşir. Deməli, dövlət teatrlarının maliyyə və zal problemi yoxdur. Teatrın inkişafı dövrə uyğun olmalı, hələ bəlkə dövrü də qabaqlamalıdır. Amma hələ ki, bunlar yoxdur. Mədəniyyət Nazirliyinin yeni rəhbərliyi çox böyük işlər görüb, bir müddət keçmiş rəhbərlikdən qalma əgər-əskiyi aradan qaldırmaqla məşğul oldu. İlk növbədə Mədəniyyət Nazirliyinin strukturuna düşmüş, bu sahəyə dəxli olmayan təsadüfü insanlar oradan uzaqlaşdırıldı. Teatr forumu, kino forumu və digər iri formatlı tədbirlər keçirildi. Nəsə etmək üçün struktur dəyişikliklər etmək lazımdır.

***- Teatrlarda bir dəyişikliyə nail olunubmu?***

- Hələki teatrlar elə əvvəlki qaydada öz fəaliyyətlərini davam etdirirlər. İlk növbədə teatrların və digər müəssisələrinin rəhbərliyinə gətirilən şəxslər peşəkarlar olmalıdırlar. Amma belə görünür ki, bu peşəkarlar azdır və ya heç yoxdur. Kadr çatışmamazlığı var.

***- Bəs teatrlarda və ya digər mədəniyyət müəssisələrində fəaliyyət necədir?***

- Mədəniyyət nazirliyinin yeni rəhbərliyi, dediyim kimi, işini müasir şəkildə qurmağa çalışır. Yuxarıda qeyd etdiyim kimi, nazirliyin yeni rəhbəriyi əvvəlki rəhbərliyin etdiyi kobud səhvləri aradan qaldırmaqla məşğuldur. Yaxşı bilirik ki, Mədəniyyət Nazirliyinin əvvəlki rəhbərliyinin fəaliyyəti bərbad halda olub. Elə bu səbəbdən də, ölkə rəhbəri o dövrün bir neçə vəzifəli şəxsi işdən uzaqlaşdırılmış və hətta məsuliyyətə cəlb olunmuşdu.

***- Belə bir fəaliyyət hansı hallarda özünü biruzə vermişdi?***

- Bir çox halalarda. Həmin rəhbərliyin mədəniyyət xadimlərinə qarşı haqsızlığını saymaqla bitməz. Fəxri adların, mükafatların, təqaüdlərin və sairin verilməsində, bir çox hallarda hansısa güzəştlərə, tapşırıqlara və daha nələrəsə yol verilib. Səməndər Rzayevin xalq artisti fəxri adı almadan 42 yaşında dünyadan köçməyi, Novruz Novruzovun heç bir fəxri ad almadan vəfat etməsi, Qulu Əskərovun fəxri ad almadan həyatla vidalaşması və sair dediklərimizə misal ola bilər. Bu siyahını uzatmaq da olar. Oqtay Ağayevlə bağlı maraqlı hadisəni xatırlatmaq istərdim. Bir dəfə Ulu Öndər Respublika sarayında konsertdə olarkən, aparıcı elan edir ki, oxuyur, Oqtay Ağayev. Ulu Öndər Heydər Əliyev yanında əyləşmiş, sabiq Mədəniyyət naziri Polad Bülbüloğlundan soruşur ki, məgər Oqtay Ağayev fəxri adı yoxdur? Elə həmin gün, 66 yaşlı mərhum Oqtay Ağayev, əməkdar artist fəxri adı almadan, birbaşa xalq artisti fəxri adına layiq görülür. Belə hadisələr çoxdur. Mən sizə yaş senzi ilə bağlı daha bir hadisəni də danışmaq istəyirəm. Vaxtı ilə Həsən Turabov o vaxt ki Mədəniyyət Nazirliyinin göstərişi əsasında xalq artistləri Sofa Bəsirzadəni, Məhluqə Sadıqovanı və Muxtar Afşarovu pensiya yaşı ilə bağlı teatrdan uzaqlaşdırmışdı. Amaliya Pənahova dərhal həmin sənətkarları yeni yaratdığı Bakı Bələdiyyə Teatrına işə qəbul etmişdi. Mən vaxtı ilə rəhmətlik Amaliya Pənahova ilə "Şanlı Vətən" əsərini işləmişdim. Həmin tamaşanın ideya müəllifi Amaliya Pənahova, quruluşçu rejissoru, xalq artisti Mərahim Fərzəlibəyov idi. Amaliya xanım söhbət əsnasında mənim dram əsərlərimi çox bəyənmiş, niyə bu vaxta kimi fəxri adımın olmamağına isə, təəccüblənmişdi.

***- Çingiz müəllim, məgər sizin fəxri adınız yoxdur?***

- İnanın mənə, düzü mən də bunu bilmirəm ki, niyə mənim fəxri adım yoxdur. Nə fəxri adım var, nə də evim. Bunun bir neçə səbəbləri var. Mən müxtəlif instansiyaları gəzib, qapılar döyən biri deyiləm. Başımı aşağı salıb, sevdiyim işimlə məşğulam. Dram əsərləri, ssenarilər, məqalələr və mədəniyyət sahəsinə həsr olunmuş kitablarımı yazıram. 40-dan yuxarı dram əsəri və səhnələşdirmələrin, 5 ssenarinin, 300-dən yuxarı məqalənin, 20 kitabın müəllifiyəm. Əsərlərimdən 30-u müxtəlif Dövlət Dram teatrlarında tamaşaya qoyulub, ssenarilərimin 3-ü əsasında bədii-televiziya filmi çəkilərək, nümayiş olunub. Akademik Milli Dram Teatrında "Qətibə İnanc", Bakı Bələdiyyə Teatrında "Şanlı Vətən", "İmadəddin Nəsimi", İrəvan Dövlət Dram Teatrında "İnsan ömrünün nağılı" və digər əsərlərim əsasında tamaşalar oynanılır. Ağdam Dövlət Dram və Qax Dövlət Kukla teatrınlarında pyeslərim hazırlanacaq.

***- Yaradıcılığınız çox məhsuldardır. Amma təəssüf ki, nə fəxri adınız, nə də qeyd etdiyiniz kimi, eviniz var.***

- Mən də təəssüf edirəm. Amma nə etməli, bu belədir. İstər fəxri ad, istərsə də mənzil məsələsi yuxarı instansiyalarda həll olunur. Yuxarı instansiyalara bu problemin həlli üçün gərək təqdimat ola. Təqdimat olmasa, məsələn Mədəniyyət Nazirliyinin rəhbərliyi bu və ya digər instansiyalar problemdən necə xəbərdar ola bilərlər. Problem bundadır. Mən bir neçə dəfə, fəxri ad və mənzil məsələsi ilə bağlı müxtəlif yuxarı instansiyalara müraciət etsəm də heç bir nəticə olmayıb. Bütün bunlara baxmayaraq, mən yenə əvvəlki qaydada yaradıcılığımı davam etdirirəm və etdirəcəyəm də. Mədəniyyət Nazirliyinin bugünki rəhbərliyi hazırda keçmiş rəhbərliyin əyri-əskiyini aradan qaldırmaqla məşğuldur. Belə davam edərsə, yaxın gələcəkdə dəyişiklik və yeniliklərin olacağına inanıram.

***- Dəyişiklik və yenilik deyəndə nəyi nəzərdə tutursunuz?***

- Mən Polad Bülbüloğlunun nazir işlədiyi dövrdə Mədəniyyət Nazirliyində çalışmışam. O dövrdə incəsənət idarəsinə yazıçı, tərcüməçi və dramaturq Vaqif Əlixanlı, sonralar teatrşünas Elmira Əliyeva rəhbərlik edirdi. Məhz həmin illərdə yeni dramaturqlar nəsli yetişdi. Əli Əmirli, Firuz Mustafa, Rəhman Əlizadə, Firudin Qurbansoy, Camal Yusifzadə, bəndəniz Çingiz Ələsgərli və digərləri həmin illərdə meydana çıxdılar. "Pantamima", "Yuğ", "Marionet", "Kamera", "İlham"miniatür və digər teatrlar məhz həmin illərdə yarandı. Forum keçirmək çox yaxşıdır. Amma forumdan sonra müasir və ya klassik növzulu tamaşalarının festivalını keçirmək daha yaxşı olmazmı? Əlbəttə, olar. Həm teatr, həm kino, həm də digər sahələr üçün gəncləri xaricə təhsilini artıqmağa və təcrübə mübadiləsi keçirməyə yollamaq olmazmı? Olar və yəqin ki, nəticə özünü çox gözlətməz.

***- Teatr aləmindəki vəziyyətlə bağlı kifayət söhbət etdik və bəs kinoda vəziyyət necədir?***

- Kino yaranandan sonra hamı elə bilirdi ki, kino teatrı məhv etdi. Amma zaman göstərdi ki, kino nə qədər inkişaf edib, cazibəsi ilə göz oxşasa da, heç vaxt teatrın canlılığını verə bilməz. Rəhmətlik Səməndər Rzayev məşhur filmdə dediyi kimi, kino ki var, həm qəliz, həm də lazımlı sahədir. Kino bütün hallarda ssenari, ssenari və yenə ssenari deməkdir. Peşəkar yox, yüksək peşəkar səviyyəli ssenari olmadan kino yoxdur. Keçmiş kinolar sadə kino aparaturaları ilə çəkilsə də, bu günə qədər baxılır. Səbəb peşəkar səviyyəli ssenarilərin olmamağı və ya az olmağındadır. Dövr başqadır. Texnika inkişaf edir. Və o da anlaşılandı ki, əvvəllər milli teatr və kino ənənəsi olub. Bu gün bütün bunlar yoxdur. Yadımıza salaq. "Nəsimi" filmi deyiləndə, İsa Hüseynov, rejissor Həsən Seyidbəyli və rolların ifaçısı Rasim Balayev, Yusif Vəliyev, İsmayıl Osmanlı və digərləri, "Əhməd hardadır?" filmi deyiləndə, Sabit Rəhman, rejissor Adil İsgəndərov, rolların ifaçıları Lütfəli Abdullayev, Səyavuş Aslan, Məmmədrza Şeyxzamanov, Məcibə Məlikova, Eldəniz Zeynalov və digərləri, "Qaynana" filmi deyiləndə, Məcid Şamxalov, rejissor Hüseyn Seyidzadə, rolların ifaçıları Nəsibə Zeynalova, Fuad Poladov, İlham Namiq Kamal və başqalrı, "Bəyin oğurlanması" filmi deyiləndə Mövlud Süleymanlı, rejissorlar Ceyhun Mirzəyev və Vaqif Mustafayev, rolların ifaçıları Həsən Turabov, Yaşar Nuru, İlham Namiq Kamal, Ramiz Əzizbəyli və başqaları yada düşür. Amma bütün hallarda yüksək peşəkar film çəkilişi üçün yaxşı məbləğdə vəsait, peşəkar ssenari, bu günün nəbzini tutan rejissor və maraqlı aktyor heyəti olmalıdır.

***- Deməli, deyilənlərdən belə qənaətə gəlmək olar ki, yaxın zamanda hələ ki, maraqlı filmlərə tamaşa etməyimiz mümkün olmayacaq.***

- Yox, elə niyə, yaxın gələcəkdə maraqlı filmlərimiz olacaq. Çünki Mədəniyyət Nazirliyi bu sahədə də vacib addımlarını atır. Mən optimist insanam və Mədəniyyət Nazirliyinin yeni rəhbərliyinin fəaliyyətinə çox inanınaram. Yaxın gələcəkdə teatrlarda və kinoteatrlarda maqarlı tamaşa və kinofilmlərin olacağına böyük ümidim var.

***Müsahibəni apardı:***
***Zümrüd BAYRAMOVA***

# "Freedom House" Azərbaycanın nüfuzuna xələl yetirmək iqtidarında deyil

ABŞ-də fəaliyyət göstərən və özünü demokratiya və insan hüquqlarının keşikçisi kimi qələmə verən "Freedom House" təşkilatı bu günlərdə dərc etdiyi "Xalqlar keçiddə 2024" adlı illik hesabatında hazırda beynəlxalq aləmdə cərəyan edən proseslərə dair özünəməxsus şəkildə rəylərini açıqlayıb. SİA xəbər verir ki, bunu Milli Məclisin deputatı Əli Hüseynli deyib.O bildirib ki, bütövlükdə hesabat müəlliflərinin



nasibətinin ilk təzahürü deyil. "Qeyri - hökumət" təşkilatı olan "Freedom House"-un antiazərbaycan mövqeyi çoxdandır ki, Bakıda heç kəsi təəccübləndirmir. Görünən odur ki, kollektiv Qərb Azərbaycanın artan gücünü və müstəqil siyasətini həzm edə bilmək üçün özündə güc tapa bilmir. Əksinə, üçüncü sektoru, o cümlədən müstəqil QHT adı altında fəaliyyət göstərən, özünü "demokratiya və insan hüquqlarının keşikçisi" kimi qələmə verən, əslində isə asılı və muzdlu hökumət aləti olan "Freedom House" təşkilatını özünün qərəzli niyyətlərini reallaşdırmaq üçün ideoloji vasitə kimi istifadə edir. Məlum olduğu kimi, təşkilatın 80 faiz büdcəsi qrantlar vasitəsilə ABŞ hökuməti tərəfindən maliyyələşdirilir. Ona görə də təəccüblü deyil ki, bəzən bu QHT-ni Dövlət Departamentinin Amerika qaydalarına uyğun oynamaq istəməyənlərin üstünə buraxdığı zəncir köpəyi adlandırırlar.

açıq-aşkar pozucu mövqedən çıxış edərək diplomatiya və qarşılıqlı anlaşmaya qarşı çıxdıqları aydın şəkildə sezilir."Ayırıcı xətləri dərinləşdirərək ikili standartlar üzərindən dövlətləri öz tərzlərinə uyğun bu və ya digər düşərgəyə aid edən "Freedom House" ölkəmizi də dünya ictimaiyyətinə mənfi obrazda təqdim etməyə cəhd göstərib. Belə ki, Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsini və müstəqil siyasət yürütməsini həzm edə bilməyən hesabatın sifarişçiləri, 2023-cü il sentyabr ayında Qarabağda həyata keçirilmiş lokal antiterror tədbirləri nəticəsində guya insan hüquqlarının pozulduğunu iddia edirlər.Bu fakt illər boyu erməni lobbisinin təsiri altında fəaliyyət göstərən təşkilatın ölkəmizə qarşı ədalətsiz və qərəzli mü-

Prezident İlham Əliyev hələ ötən il iyunun 20-də Çinin "China Media Group" media korporasiyasına müsahibəsində "Freedom House" və digər oxşar təsisatların fəaliyyətinə siyasi qiymət verərək bildirmişdi ki, "Hamımız bilirik ki, onlar müstəqil deyil. Kim deyə bilər ki, "Human Rights Watch", "Amnesty International" və "Freedom House" müstəqildirlər. Baxın, onlar kimdən pul alırlar və kim musiqini sifariş edir. Onda görəcəksiniz ki, onlar tamamilə asılıdırlar".Lakin Freedom House təkcə ABŞ-ın siyasi dairələrinin deyil, eyni zamanda millətçi fanatizmdən əziyyət çəkən ermənilərin də əlində bir oyuncağa çevrilib. Bu təşkilatın Azərbaycana müntəzəm hücumlarının bir izahı da elə onun ermənipərəst mövqeyi ilə bağlıdır. Ermənilər həqiqətən də "Freedom House"-da dərin kök salıblar. Ümumilikdə zərərli və yanlış olan hesabatda Azərbaycanın xüsusi hədəfə alınması təşkilatın vitse-prezidenti Anni Boyaçıyan daxil olmaqla çoxsaylı radikal erməni funksionerlərinin, o cümlədən idarəçilikdə rol alan Roza Melkumyan, Şaron Nazaryan, Andranik Şirinyan, Viktoriya Andreasyan kimi erməniəsilli şəxslərin fəaliyyətinin nəticəsidir.

Belə ki, onlar insan hüquqları kimi ali dəyəri müdafiə etmək əvəzinə milli təəssübkeşlikdən çıxış edir, mövqelərindən və resurslarından sui-istifadə edərək Azərbaycana qara yaxırlar. Ancaq reallıq ondan ibarətdir ki, kimin necə münasibət bəsləməsindən asılı olmayaraq bizim ötən dövrdə əldə etdiyimiz tarixi nailiyyətlər, Azərbaycan Prezidenti cənab İlham Əliyevin müdrikcəsinə reallaşdırdığı mütərəqqi praqmatik siyasi kurs, atdığı dəqiq diplomatik addımlar rəsmi Bakının dünya ölkələri sırasındakı çox nüfuzlu mövqeyini qoruyub saxlamağa və daha da yüksəltməyə təminat verir".

# "Azərbaycan dili üzrə sertifikasiya imtahanı payızda keçiriləcək"

***Azərbaycan dili üzrə sertifikasiya imtahanı payızda keçiriləcək. SİA xəbər verir ki, bunu Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə deyib. O bildirib ki, imtahan iştirakçılarının Azərbaycan dili üzrə biliklərinin qiymətləndirməsi A1, A2 başlanğıc, B1, B2 orta, C1, C2 yuxarı səviyyələrində aparılacaq: "Beləliklə, Azərbaycan dili üzrə də belə standart imtahan mövcud olacaq. Hazırda imtahanı həyata keçirmək üçün elmi-pedaqoji heyət arasında müzakirələr aparılır. Onların fikirlərini öyrənib imtahanı keçirəcəyik".***



DİM rəhbəri Azərbaycan dili üzrə sertifikasiya imtahanından sonra müvafiq bazanın toplanacağını və həmin baza əsasında statistik təhlillər aparılacağını söyləyib: "Tələblərə cavab verən gənclərin Azərbaycan dilini hansı səviyyədə bilməsi müəyyənləşəcək. İstər evdar xanımlar, istər işləyən şəxslər - hər kəs bu imtahandan keçib dil biliyi səviyyəsini ölçə bilər".

Məleykə Abbaszadə statistika toplanılması, sosial eksperiment məqsədilə Azərbaycan dili üzrə ilkin sertifikasiya imtahanlarının ödənişsiz olacağını diqqətə çatdırıb: "Lakin sonra hüquqi müstəvidə də müəyyən addımlar atılacaq. Sonrakı mərhələdə ola bilər ki, B1, B2 səviyyəsində sertifikat əldə edən şəxs dövlət qulluğu imtahanında Azərbaycan dili fənni üzrə imtahandan azad oluna bilər. İmtahan dili öyrənənlər, diaspor üzvləri üçün, dilin səviyyəsini müəyyən etmək üçün vacibdir".

Məleykə Abbaszadə son 5-6 ildə dünyada xaricilərin Azərbaycan dilini öyrənmə marağının artdığını vurğulayıb.

# ""Böyük Qayıdış" konsepsiyası uğurla icra olunur"

"Azərbaycan Vətən müharibəsindəki böyük və şanlı qələbəsi və bir günlük anti-terror tədbirləri ilə öz ərazi bütövlüyü və suverenliyini bərpa etdi. Otuz ilə yaxın düşmən tapdağında olan müqəddəs ərazilərimizi geri qaytardıq. Dünyanın ən çox mina ilə çirklənmiş ərazisi olmasına baxmayaraq işğaldan azad edilmiş ərazilərimiz Azərbaycanın məhz öz gücünə minalardan təmizlənir və paralel olaraq sürətli şəkildə böyük quruculuq, bərpa işləri həyata keçirilir". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Vüqar İskəndərov deyib. Deputat bildirib ki, sözün əsl mənasında qısa zaman ərzində işğaldan azad olunmuş torpaqlarımızda hava limanları, inzibati dövlət binaları, yaşayış məskənləri, ağıllı kənd və şəhər konsepsiyasının, yaşıl zona sisteminin formalaşdırılması üçün çox mühüm işlər görülür: "Artıq bir çox ərazilərdə insanların qayıdışı və orada firəvan həyat sürmələri təmin olunub. Məhz ilk olaraq da qarşımızda duran məsələ həmin ərazilərin bərpası və məcburi köçkünlərin öz doğma yurdlarına geri qayıdışının təmin edilməsidir.

"Böyük Qayıdış" konsepsiyası hazırda uğurla icra olunur. Füzuli, Zəngilan, Laçın və digər ərazilərə insanların qayıdışı həyata keçirilir. Həmin ərazilərdə yaşayış üçün vacib bütün infrastruktur yaradılaraq, istifadəyə verilib. İşğaldan azad edilmiş ərazilərdə yeni iş yerlərinin açılması məsələsi də gündəmdə olan ən vacib məqamlardan biridir. Ümumilikdə qarşıdakı illərdə bütün şəhər və kəndlərə insanların qayıdışı təmin olunacaq. Paralel olaraq həmin ərazilərdə, yeni Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonasında ağıllı kənd və şəhər konsepsiyası daha da inkişaf etdiriləcək. Xüsusilə də həmin torpaqların yaşıl zona kimi inkişafına xüsusi diqqət ayrılır. Burada diqqəti çəkən əsas məsələsi isə bütün bu işlərin sırf Azərbaycanın öz gücü və potensialı hesabına həyata keçirilməsidir. Bu da birbaşa olaraq respublikamızın qüdrətindən xəbər verir".

*Səbinə Hüseynli*



# Səs salma...

**MƏTANƏT**

***Aprelin 16-sı Ümumdünya Səs Günü kimi qeyd olunur. Həmin günün məqsədi ictimaiyyətə səsin insan həyatındakı rolu və əhəmiyyəti, səsdə yarana biləcək problemlər haqqında informasiya verməkdən ibarətdir.***

İnsanın səsini eşidərək yaşı, cinsi, emosional vəziyyəti, xarakteri haqqında ilkin məlumat yaranır. Bu baxımdan səsi insanın vizit kartı da adlandırırlar. Elə bu kəlmələrdən yola çıxaraq yersiz, bir-birimizin istirahətini pozan, bəzən əsəbləri ilə oynayan, bəzən də dəli olmaq həddinə gətirən səslərdən söhbət açmaq istədim. Hələ öz səsimiz bir yana, bizə məxsus əşya, telefon və avtomobilləri çıxarmağa məcbur etdiyimiz səslərdən, bütün bunların isə kənardakılara təsirindən danışmaq istədim.

Deyirlər, bir insanın səsi digərini valeh edə, qıcıqlandıra və yaxud da sakitləşdirə bilər. Bizi kimin səsi valeh edə bilir. Əlbəttə ki, sevdiyimiz insanların. Məsələn, ana səsi məlhəm kimi gəlir bizə, ata səsi doğmadan doğma. Bacı-qardaşımızın səsi hər an eşitmək istədiyimiz səsdir. Sevdiyimiz insanın səsi isə ən sevdiyimiz səsdir. Qohumların səsi də bizim üçün əzizdir. Qonşuların, sinif, tələbə, iş yoldaşlarımızın, dost və rəfiqələrimizin səsi hər zaman eşitməyə ehtiyac duyduğumuz səslərdir.

Lakin bütün bu səslər o zaman daha sevimli olur ki, o, mehribancasına, sakitcə səslənir. Hətta ən sevdiyimiz səs olan ana səsi bizi oxşayanda, əzizləyəndə daha sevimli olur, nəinki səhvimizi üzümüzə çırpanda, hirslə nə isə söyləyəndə. Atamızın səsi nə qədər doğma olsa da, bizə hirslənəndə sanki bir az başqalaşır. Eləcə də bacı-qardaşımızın, biz o səsləri mehriban olanda sevirik, dalaşanda deyil.

Dost və rəfiqələrimiz bizə qarşı etibarlı olanda səslərindəki məlahət bir gün etibarsızlıq, nankorluq edərkən eşitdiyimiz səslərdən çox fərqlidir. Ən yaxın qonşumuzun səsi nə qədər doğmadırsa, evində uşağına çığırması, boş yerə səs-küy salması ilə divarı aşıb gələn səsdən dəfələrlə fərqlidir... Elə bunlara görə də zamanla eşitmək istəmədiyimiz səslər yaranır.

Küçədə, yolda, metroda, istənilən ictimai yerdə isə kimin səsinin yanındakı üçün nə dərəcə xoş olmasından asılı olmayaraq, ətrafdakı hər kəsə xoş gələn tərzdə səslənməsi vacib şərtlərdən biridir. Çünki ucadan danışan heç kim kənardakı insanlara yaxşı təsir bağışlaya bilməz. Küçədə özünü apara bilməyən bəzi gənclərin çıxardığı səs özündən dəfələrlə böyük, qayğısı olan yaşlı adamlara xoş gəlməyə bilər. İctimai nəqliyyatda bir-biri ilə dalaşan ər-arvadın səsi heç kim tərəfindən xoş qarşılana bilməz. Və yaxud da küçə boyu bir dəstə qızın ucadan söhbəti və gülüşü ətrafdan müsbət reaksiyaya səbəb ola bilməz.

Odur ki, bizə Allah-təalanın özümüzü ifadə etmək üçün verdiyi səsin həm qədrini, həm də dəyərini biləк. Unutmayaq ki, səsimiz bizim vizit kartımızdır. Kimliyimizi, mədəniyyətimizi ətrafa nümayiş etdirən vasitədir.

Ən əsaslardan biri də odur ki, tək öz səsimizi deyil, eyni zamanda bizə məxsus əşyaların da səsinə biz cavabdehik. Məsələn, küçədə əlini maşının siqnalına qoyub çəkməyən, bu səsi insanların beyninə işlədən, əsəblərini tar-mar edən insan necə mədəni ola bilər? Bağlı pəncərələrdən keçib, iş otaqlarında əsəblərimizə sitəm çəkən bu səs sahibinin elə öz səsi deyilmi?

Küçədə telefonunun səsini qaldırıb musiqi dinləyən bir insan necə, mədəni hesab oluna bilərmi? Axı əşyasından çıxan səsi o idarə edir. Bu, necə, onun öz səsi deyilmi?

Sakit bir məkanda-telefonda oyun oynayaraq ətrafa gurultulu səs yayan adam necə, bu səs onun özünə məxsus deyilmi?

Beləliklə, bu qənaətə gəlmək olur ki, biz öz səsimizin sahibi olduğumuz kimi, əşyalarımızdan çıxan səslərin də sahibiyik. Bizə məxsus olduğu üçün əşyalarımıza nəzarət də bizə məxsusdur. Odur ki, həm öz, həm də əşyalarımızın səsinə nəzarət edək. Yerli-yersiz səslərin hər biri insana fərqli təsir edir. Biz yerində olan səsləri seçək. Seçək ki, kimsə bizə "səs salma" deməsin. Bunu eşitmək insan övladına layiq hal deyil...




# “Tədbirlərə ev sahibliyi etməyimiz göstərir ki...”

**“Məlum olduğu kimi bu ilin payızında ölkəmizdə çox əhəmiyyətli beynəlxalq tədbir - COP29 tədbiri keçiriləcək”. Bu sözləri SİA-ya açıqlamasında deputat Jalə Əliyeva deyib. Deputat bildirib ki, bu tədbir həm öz əhatə dairəsinə, həm iştirak edəcək qonaqların sayına, ehtiva etdiyi məsələlərin əhəmiyyətinə görə çox böyük nüfuzlu tədbir olaraq dəyərləndirilir: ”Ölkəmizə 80 minə qədər insan gələcək. Belə mötəbər tədbirə ev sahibliyi etməsi üçün etimad göstərilməsi Azərbaycanın nüfuzunu, gücünü, qüdrətini ortaya qoyur. Dünyada tanınmış və təsdiq edilmiş nüfuz sahibi olan ölkədə belə tədbirin keçirilməsi ancaq məqsədəuyğun ola bilərdi ki, bunun üçün də Azərbaycan seçilib.**

Ümumiyyətlə, Azərbaycanın həm beynəlxalq aləmdəki nüfuzu, həm də ölkə daxilindəki stabil siyasəti, əminamanlıq, demokratik dəyərlərə verilən qiymət beynəlxalq təşkilatların ölkəmizə olan marağını və istəyini də artırmaqdadır. Buna görə də Azərbaycan önümüzdəki payız ayında ev sahibliyi edəcəyi bu toplantıda düşünürük ki, bir daha nüfuzunu, əhəmiyyətini nümayiş etdirə biləcəkdir”.

”Eyni zamanda bu toplantının ehtiva etdiyi məsələlər bu gün bütün dünyanı düşündürən, narahat edən məsələlərdir ki, bu problemlərin də həlli yollarının vacibliyini hər zaman Azərbaycan irəli sürmüşdür. Ölkə Prezidenti cənab İlham Əliyev bütün müvafiq beynəlxalq toplantılarda ekoloji tarazlığın qorunması, dünyada ekologiyanın inkişaf etdirilməsinin ümumilikdə bəşəriyyət üçün verdiyi dəyəri hər zaman qırmızı xətlə irəli sürmüşdür. Sadəcə ekoloji tarazlıq təbiətin qorunması faktorlarını ancaq təbiət hadisəsi deyil, eyni zamanda biz bunu geniş siyasi müstəvidə dəyərləndirməliyik. Bu gün ekologiyanın, tarazlığın qorunması gələcəkdə dünya insanının həyatının təhlükəsizliyinin təmin edilməsi mənasını da özündə əhatə edir. Bir daha düşünürük ki, bu, çox əhəmiyyətli tədbirdir. Tədbirlərə ev sahibliyi etməyimiz göstərir ki, daha əvvəl də nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi edən Azərbaycan üçün növbəti mərhələ olacaq. Bu mərhələ bütün dünyaya bir daha Azərbaycanın simasını, verdiyi dəyərlərin nümayişinə çevriləcəkdir.

İqtisadi tərəfinə baxsaq, bu tədbir Azərbaycana nə qazandıracaq?

Bütün ictimai-siyasi dəyəri ilə bərabər eyni zamanda iqtisadi-maliyyə tutumu da göz önündə saxlanmalıdır. 80 min insanın Azərbaycana gəlmiş olması Azərbaycana da yeni dividentlər qazandıracaqdır. Biz COP29 beynəlxalq tədbirinin Azərbaycanımız üçün daşıdığı əhəmiyyəti bir daha vurğulayaraq ölkəmizə, dövlətimizə bu günə qədər olduğu kimi, bundan sonra da həyata keçirdiyi bütün fəaliyyətlərində və ev sahibliyi etdiyi bütün tədbirlərdə uğurlar diləyirik” - deyə o əlavə edib.

***Söylü Ağazadə***

# Küçədə toplaşmaq 90-larda qaldı

*TƏRS BAXIŞ*



Bildiyimiz kimi, radikal müxalifət aprelin 21-nə mitinq elan edib. Birincisi, xalq küçədə toplaşmağı 90-larda nöqtələyib. Boş, mənasız danışıqlardan ibarət, nəticəsi olmayan, xalqı aldatmaqdan başqa nəyəsə xidmət etməyən mitinqləri xalqımız o zamanlar çox görüb. Görüb ki, bu mitinqlərdə radikallar yalnız özlərini tərifləyir, hakimiyyətə gəlmək üçün əldən-ayaqdan gedirlər. Zamanla bundan usanan insanlar mitinqlərdən uzaqlaşıblar. İndi müxalifət elan etdiyi mitinqi kiminlə keçirəcək, bu, maraqlıdır. Bir də o maraqlıdır ki, bəs nə üçün məhz indi? Ölkədə Prezident seçkiləri kimi böyük bir kampaniya həyata keçirildi. Və müxalifət həmin seçkini baykot etdi, lakin nədənsə həmin vaxt mitinq etmək fikrində olmadı. Hansı ki, ayın 21-nə planlaşdırdığı mitinqdə digər məsələlərlə yanaşı, ”azad seçki” ilə bağlı məsələnin də müzakirə olunacağını anons edir. Görəsən bu ”azad seçki” məsələsini dilə gətirənlər nə üçün unudur ki, qrand qarşılığında baykot etdikləri seçkidən bəhs etməyə haqları yoxdur. Bir siyasi partiya kimi seçki qanunvericiliyinə zidd hərəkət edənlər özlərini nə qədər doğru hesab edirlər ki, xalqa ”azad seçki” dərsi verməyə cəhd göstərirlər?..

Fikir verən varsa, radikallar fəaliyyətlərini son illər daldan atılan daşın topuğa dəyməsi məsələ üzərində qurublar. Yəni burada əslində onların özlərindən də heç nə asılı deyil. Çünki onlar nəinki fəaliyyətlərinə, günlük həyat tərzinə belə özləri qərar vermək hüququndan illərdir ki, məhrum olunublar. Bu qərarları onlara qrand təqdim edənlər verir. Və bu qrand qarşılığında da ”Fatı qalx, Fatı otur” əmrinə müntəzir olmaq alın yazılarına çevrilib.

Eşidəndə ki, aprelin 21-nə müxalifət mitinq planlaşdırıb, ilk ağla gələn də elə yuxarıda bəhs edilənlər oldu. Bir də onların davamı olaraq bu oldu ki, bəli, axı aprelin 5-də Brüsseldə keçirilən ABŞ, Avropa İttifaqı və Ermənistan üçtərəfli görüşünün bir çıxacağı olmalı idi. Ermənistana hərbi dəstək, Azərbaycan ilə sərhədyanı ərazilərdə hərbi infrastrukturun yaradılması, Avropa İttifaqının Avropa sülh mexanizmi xətti ilə və ABŞ büdcəsi hesabına Ermənistanın silahlandırılması kimi məsələləri özündə ehtiva edən görüşdən sonra təbii ki, yeni qrandların ayrılması görünən idi. Regionda münaqişə yaratmaq istəyənlər ölkəmizin daxilində də iğtişaşların baş verməsini düşünməmiş deyildir. Elə bu səbəbdən də sapı içimizdən olan ”baltalara” yeni tapşırıqlar verildi. Qrand müqabilində yeni iş görmələri istənildi. ”Pulunu al, mitinqini keçir” tapşırıldı.

Ürəklərində illərin hakimiyyət arzusu kömürləşən radikallar isə ”həm ziyarət, həm ticarət” deyib cəmiyyətdə növbəti qarşıdurma yaratmaq cəhdini göydəndüşmə kimi qarşıladılar. Yəni, pulları alıb mitinq elan etdilər.

Əslində 21 aprel mitinqi radikalların sırasında yaşanan daxili rəqabətin də təzahürüdür. Necə ki, 90-larda partiyaların hər biri guya üstün olduğunu xalq qarşısında nümayiş etdirərək özünü gözə soxmaq istəyirdi, indi də elədir. Çünki illər bu xislət sahiblərini əsla dəyişməyib. İndi də keçirmək istədikləri mitinqin bir tərəfi aldıqları qrandlar qarşılığında ölkədə yaratmağa çalışdıqları iğtişaşa xidmət edirsə, digər tərəfi isə rəqabətə, mənəmmənəmlik prinsipinə xidmət edir.

Arzularının isə yenə də ürəklərində qalacağı sözsüzdür. Xalq bu dəfə də küçəyə toplaşmaq istəyənlərin boş-boş danışıqlarına qulaq asmağın mənasız olduğunun təsdiqi kimi onları məxsus olduqları küçələrdə tək qoyacaq.

Müharibədən yenicə çıxmış, minlərlə övladını şəhid vermiş, gözü qarşısında minlərlə balasının saqlamlıq imkanını məhdud görən xalq yenidən 90-lara qayıtmaq fikrində deyil.

Bu gün Qarabağ və Şərqi Zəngəzurdan ermənilərin kökünün kəsildiyi, möhtəşən bərpa işlərinin getdiyi, soydaşlarımızın növbəli şəkildə doğma yurd-yuvasına qayıtdığı bir vaxtda xalq daxili münaqişələri yaratmaq fikrində olanları qəti şəkildə pisləyir.

Siyasi dialoqu inkar edən və sağlam rəqabətə hazır olmayan, tək ümidi küçə iğtişaşları yaratmaq olan radikalların hər zaman olduğu kimi, bu dəfə də oxu hədəfə dəyə bilməyəcək. Çünki atdıqları oxun hədəfi hələ 90-lardan üzübəri həmişə özləri olub. Odur ki, 21 aprel mitinqini mənasız bir çağırış, baş tuta bilməyəcək bir hadisə kimi düşünmək olar. Üç-beş adamı xahişlə, tanışçılıqla, qranddan pay ayırmaqla küçəyə yığmağa çalışmaq ağılsızlıqdan başqa bir şey deyil.

Bir də artıq insanlar 90-lardakı insanlar deyil. Kimin nəyə xidmət etdiyini, kimin xalqın tərəfində olduğunu yaxşı görür və analiz edirlər. Sosial şəbəkələrdə çığırmaqla, insanları boş söhbətlərə qulaq asmağa çağırmaqla deyil, bunun boş bir çağırış olduğunu günlər sonra görəcəyik. İndi küçədə toplaşmaq vaxtı deyil. O dövr dünəndə qaldı. İndi lazımi yerlərdə əyləşib iş görmək vaxtıdır. O iş ki, xalqın xeyrinə, millətin gələcəyinə xidmət etmiş olsun.

***Mətanət Məmmədova***

## Azərbaycandan Həcc ziyarəti üçün kvota azaldılıb



***Azərbaycandan Həcc ziyarəti üçün kvota azaldılıb. SİA xəbər verir ki, bu barədə Qafqaz Müsəlmanları İdarəsinin Xarici Əlaqələr şöbəsinin müdiri və Həcc Elektron Sistem məsulu Vüsal Cahangiri məlumat verib. O bildirib ki, ilkin kvota üçün 2000-dən çox yer nəzərdə tutulsa da, 1500 kvota yeri ayrılıb. ”İdarə kvotanı bir neçə dəfə azaltmaq zərurəti ilə qarşılaşıb. Bunun isə heç vaxt müşahidə olunmayan səbəbləri var”.***

Şöbə müdiri deyib ki, keçən il Həcc mövsümündən sonra, yəni iyul ayının sonunda Səudiyyə Ərəbistanı Krallığının Həcc və Ümrə Nazirliyi bir çox ölkələrə, o cümlədən Azərbaycan vətəndaşlarına elektron viza almaq şəraitini yaradıb: ”Elektron viza bir illik və çoxgirişli verilir. Bəzi işbaz şirkətlər və yaxud fərdlər isə vətəndaşların başını aldadaraq elektron viza ilə Həcc ziyarətinə, daha ucuz qiymətə aparacaqlarını bildiriblər. Bizdə olan məlumata görə, hazırda təxminən 500-ə yaxın vətəndaş bu işbazların qurbanıdır. Keçən il də belə işbazlar çoxlu qurbanları olub, onlardan pul yığıblar, lakin apara bilməyiblər, xeyli vətəndaşın pulları batıb. Bununla bağlı bizdə dəqiq məlumatlar var, həmin şəxslərin əlaltıları bu il bu vizalarla vətəndaşları aldadıblar.

Həcc ziyarəti üçün xüsusi viza alınır. Krallıqda Həcc ziyarətinə getmək üçün xüsusi sahələr və ərazilər var - Ərəfat, Mina, Müzdəlifə. Bu yerlərə yalnız Həcc vizası ilə daxil olmaq mümkündür. Vətəndaşlardan xahiş edirik ki, bu cür təşviqedici təkliflərə aldanmasınlar. Səudiyyə Ərəbistanı Krallığının müvafiq nazirlikləri bundan tam xəbərdardırlar və bu barədə tədbir görməyə hazırlaşırlar. Elektron vizalarla Həcc ziyarətinə getmək istəyənləri deport və cərimələr gözləyir”.

Vüsal Cahangiri bildirib ki, kvotanın azaldılmasının digər səbəbi isə budur ki, Səudiyyə Ərəbistanının Həcc və Ümrə Nazirliyi prosedurların erkən bitirilməsini tələb edir: ”Bu il əvvəlki kimi deyil, ötən illərdən fərqli olaraq bu il elektron sistemdə sənədləşmə və viza işləri 1 ay tez bitməlidir. Ona görə vətəndaşlardan xahiş olunur ki, tələssinlər, yalan vədlərə aldanmasınlar. Çünki kvotanın dolmasına çox az qalır. Nazirliyin təyin etdiyi vaxta əsasən bütün prosedurlar, o cümlədən vizaların verilməsi aprel ayının sonuna kimi tamamlanmalıdır”.

Xatırladaq ki, fevralın 12-dən Azərbaycandan Həcc ziyarətinə getmək üçün sənəd qəbuluna başlanılıb. Bir nəfər üçün ziyarət paketinin qiyməti 5850 ABŞ dolları təşkil edir. Ziyarət vahid formada təşkil olunacaq və hava nəqliyyatı ilə həyata keçiriləcək.

# Bu bitkiləri yataq otağından ayırmayın:

# ÖMRÜ UZADIR

***Yataq otağı üçün nəzərdə tutulmuş bitki və çiçəklər otağınızı canlı göstərməkdən əlavə başqa şeylər də edə bilər. Onlar əhvalınızı yaxşılaşdıra, yaradıcılığınızı gücləndirə, stress səviyyənizi azalda, məhsuldarlığınızı artıra, hava çirkləndiricilərini təbii olaraq filter edə bilər və s.***

Bir çoxumuz havanın keyfiyyətinin nə qədər vacib olduğunu dərk etmirik. Çox vaxt evlərimizdəki izolyasiya, boya və mebel daxili havamızı formaldehid və benzol kimi toksinlərlə çirkləndirə bilər. Evinizdəki havanı təmizləyən bitki və çiçəklərin gücündən istifadə etmək çox vacibdir. Yataq otağındakı bir bitki yarpaqlarındakı məsamələr vasitəsilə zərərli qazları udaraq hər gün nəfəs aldığınız havanı təmizləyə bilir.

Bir çox faydaları ilə yanaşı, yataq otağı bitkiləri istənilən interyerə gözəl dekorasiya toxunuşu və böyük enerji əlavə edir. Yaşayış yerlərinizə bir az yaşıllıq əlavə etmək istəyirsinizsə, yataq otağına yerləşdirilə biləcək bitki və çiçəkləri aşağıda sadaladıq.

SİA mövzu ilə bağlı araşdırma aparıb.

**1. Qılınc Çiçəyi - Paşanın Qılıncı**

Bu Paşa Qılınc, Peyğəmbər Qılıncı, Qılınc Çiçəyi kimi də tanınır. Qılınc Çiçəyi havanı demək olar ki, hər hansı digər ev bitkilərindən daha yaxşı təmizləyir və çox davamlıdır. Qılınc çiçəyinin möhkəm yarpaqları torpağın qida baxımından zəif və yağışların qeyri-sabit olduğu Qərbi Afrikanın sərt şərtlərində yaşamağa uyğunlaşdırılmışdır. Qulluğu asan olan Qılınc Çiçəyi yataq otağı üçün ideal seçimdir, çünki o, NASA-nın ən yaxşı 10 hava təmizləyən bitki siyahısındadır. O, həm də gecələr karbon qazını oksigenə çevirən bir neçə otaq bitkilərindən biridir (əksər otaq bitkiləri bunu yalnız gün ərzində edir). O, gündüz və gecə daxili havanı təmizləyir.

**2. Patos sarmaşığı**

Potos sarmaşığı bütün yaşayış sahələrinə uyğun bir bitkidir. Ətrafına mükəmməl bir görünüş qatır və yataq otağı üçün çox uyğundur. Patos havanı təmizləyən bitkilərdən biridir, formaldehid, karbonmonoksit və benzolun süzülməsində təsirli olur, ona qulluq etmək və yetişdirmək olduqca asandır. O, qapalı havanı toksinlərdən təmizləyir və qoxuları aradan qaldırmağa kömək edir.

**3. Sülh çiçəyi - Yelkən Bitkisi**

Sülh çiçəyi qapalı otaqlar üçün mükəmməl bir bitkidir və gözəl ağ çiçəklər verir. Havanı təmizləyən bitkilər arasında olduqları üçün yataq otağına yerləşdirilə bilən ən yaxşı bitkilər arasındadırlar. Onların havanı formaldehid, benzol, aseton, spirt və trikloretilendən təmizləmələri məlumdur. Bu bitkilər zəhərlidir, buna görə də onları uşaqların və ev heyvanlarının əli çatmayan yerdə yerləşdirməyi unutmayın. Sülh zanbağına qulluq etmək üçün torpağı nəmləndirin və evinizin orta dərəcədə dolayı günəş işığı alan bir sahəsinə qoyun.

**4. Aloe vera**

NASA-nın ən yaxşı hava təmizləyən bitkilər siyahısında yer alan başqa bir bitki olan Aloe Vera gecələr oksigen buraxaraq yuxu mühitinizi mükəmməlləşdirir. O, həm də baxımının ən asan bitkilərindən biridir, çünki laqeydliyə dözə bilir - belə ki, üç həftə ərzində onu sulamağı unutsanız belə, buna etiraz etməz. Bu şirəli bitkilər həm də müalicəvi faydaları ilə tanınırlar. Yarpaqlardan alınan gel qızartı və yanıqlar üçün istifadə olunur.

**5. Areca Palm**

Areca Palm hər hansı bir qapalı mühitə yaşıllığı ilə estetik əlavə edən tropik bitkidir. Bu bitkilər benzol, formaldehid və trikloretilen kimi zərərli toksinləri çıxaran havanı təmizləmə qabiliyyətinə malikdir. Hava təmizləyən bitkilər dedikdə ağıla ilk gələn bitkilərdən biridir. Əslində, bir araşdırmalar Areca Palmasının havadan karbon qazını çıxarmaq üçün ən yaxşı bitkilərdən biri olduğunu ortaya qoyub. Bu xurma torpaqları bərabər nəmləndirildikdə parlaq dolayı işıqda yaxşı böyüyür.



**6. Dağ palması**

Dağ palması doğma Qvatemalada qismən və ya tam kölgədə böyüyür, buna görə də bu bitkiləri ofislərdə, ticarət mərkəzlərində və təbii işığın az və ya heç olmayan digər qapalı məkanlarında inkişaf etdirə bilərsiniz. Əslində, çox işıq dağ xurma yarpaqlarını yandıracaq, buna görə də bu bitkini yataq otağında parlaq pəncərələrdən uzaq tutun.

**7. Kauçuk çiçək**

Kauçuk bitkisi olaraq da bilinən rezin çiçəyi, diqqət çəkən yarpaqları ilə az baxım tələb edən çox qəşəng bitkidir. O güclü detoksifikator və hava təmizləyicidir. Bu bitkinin bol yarpaqları çoxlu miqdarda çirkləndirici və zərərli maddələri cəlb edərək qapalı havanı təmizləməkdə əladır. Bitkinizi orta və ya zəif işıqda saxlamaq onun inkişafı üçün faydalı olacaq.

**8. Hedera Helix**

Hedera Helix, NASA-nın siyahısında yüksək yer tutan başqa bir sarmaşıqdır. Havanı təmizləyən bitkilərdən biri olan Hedera Helix formaldehid, benzol, ksilen və toluolun udulmasında son dərəcə təsirlidir. İngilis sarmaşığı təkcə havamızdakı toksinləri çıxarmağa kömək etmir, həm də araşdırmalar göstərir ki, allergiya simptomlarını yaxşılaşdıra, həmçinin havanı kifdən və heyvan nəcisini təmizləyə bilər.




**9. Filodendron**

Ürək yarpaqlı qonaq otağı sarmaşığı kimi də tanınan Filodendron, NASA-nın ən yaxşı hava təmizləyən bitkilər siyahısındadır. Baxımı çox asan bir bitkidir, buna görə yaşayış yerlərində çox üstünlük verilir. Bu sarmaşıq bitkisinin ürək formalı yarpaqları bir neçə vizual cazibədar variasiyaya malikdir və formaldehidin udulmasında xüsusilə təsirlidir. Lakin bu sarmaşıq bitkisi yeyildikdə zəhərli olduğu üçün onu ev heyvanlarının və uşaqların əli çatmayan yerdə yataq otağına qoymaq lazımdır.

**10. Dracena Massengena**

Dracena Massengena hava təmizləyici xüsusiyyətlərə malik bitkidir, ona görə də bir çox sahədə saxlanıla bilər və eyni zamanda yataq otağı üçün çox uyğundur. Çox güclü və davamlıdır. Onlar ətraf mühitə mükəmməl görünüş əlavə edirlər. Bol işıqda xoşbəxt olan bu bitki yaşayış yerinizdə bir ağac varmış kimi hiss etdirəcək.

Mövzu ilə bağlı həkim - terapevt Sübhan Hacıyevin fikirlərini öyrəndik.

Onun sözlərinə görə, həmişəyaşıl bitkilər göz oxşamaqla yanaşı, eyni zamanda orqanizm üçün çox faydalıdır: "Ev və yataq otağındakı bitkilər yaxşı olar ki, işıq düşən yerdə olsun. Çünki fotosintez prosesi zamanı bu bitkilər karbon qazını alaraq oksigen ifraz edirlər. Oksigen də bizim yatdığımız və yaşadığımız otaqlarda rahat nəfəs almağımız üçün faydalıdır.

Eyni zamanda, bir çox bitkilər havada olan toksiki zərərli və zəhərli maddələri udaraq onların təmzilənməsində və filter prosesində böyük rol oynayırlar. Əlavə olaraq otağı qızdırdığımızda yaranan quruluğu aradan götürür və otağı nəmləndirmək kimi xüsusiyyətlərə malikdir.

Bununla yanaşı, bəzən də tənəffüs yolu allergiyası olan insanlarda (yaşıllıq, ot və çiçəklər qarşı olan bu xəstəlik polinoz adlanır) bu cür bitkilərin istifadəsi xüsusilə yaz aylarında çox əlverişsizdir. Onların allergik reaksiyaları bu zaman daha da qıcıqlanır və alınan xeyir zərərdən daha az olur".

***Ayşən Vəli***

ARAŞDIRMA

# “Radikal müxalifətin çağırışlarına qoşulanlar olmayacaq”

“Xarici fondlar musiqini sifariş edirdilər, radikal müxalifət isə aldığı pula görə musiqini ifa etməyə çalışır. Bu baxımdan radikalların 21 aprel tarixli mitinq açıqlaması onların sifarişçilərinin növbəti məkrli planın tərkib hissəsidir”. Bu sözləri SİA-ya açıqlamasında Azər Badamov deyib.Deputat sözlərinə belə davam edib: ”Panlaşdırılan mitinq ölkəmizdə yaranmış siyasi sabitliyini pozmağa və xalqı hakimiyyətə qarşı çıxartmağa hesablanmışdır. Bu gün radikallıqla məşğul olanlara təklif olunmuş siyasi dialoqdan imtina etməsi də onların ağalarının tələbidir. Çünki, onlar üçün siyasi dialoq və sivil yolla siyasi mübarizə yox, radikallıq və cəmiyyətin parçalanması maraqlıdır. Bu baxımdan radikalların cəmiyyətə müraciət etməyə və siyasətdə mövcudluğuna dair mənəvi haqqı yoxdur.



Dünyada baş verən prosesləri görə-görə xalqı meydanlara çağırmaqla ölkədəki sabitliyi pozmağına cəhd edilməsi xainlik və düşmənçilikdir. Amma xalqımız çox müdrikdir və dünyada baş verən prosesləri yaxşı dəyərləndirə bilir. Belə ki, Qərbin məkrli planlarını reallaşdırılmasına nail olan ölkələrdəki xalqların həyatlarının necə məhv olunduğunu da görürük. Təbii ki, xalqımız qazanılmış uğurları yüksək dəyərləndirir və hakimiyyətin apardığı müstəqil siyasətini dəstəkləyir. Bu baxımdan radikal müxalifətin çağırışlarına qoşulanlar da olmayacaqdır.Onu da qeyd etmək istəyirəm ki, öz ərazilərində suverenliyini təmin edərək sabitlik adasına çevrilmiş Azərbaycan Respublikasından narahat olan dairələr var. Onlar müxtəlif hesabatlarda Azərbaycana qarşı qərəzli açıqlamalar verirlər, ölkə daxilində təmin olunmuş sabitliyi pozmağa çalışırlar və öz müstəqil siyasətini yürüdən ölkəmizi özlərinin əl altısına çevirmək istəyirlər. Təbii ki, Qərbə bu məkrli niyyətlərini ölkəmizdə reallaşdırılmasına xalqımız heç vaxt imkan verməyəcək”.

*Ayşən Vəli*

# “Belə təxribatlar rəsmi İrəvanın özü üçün problemlər yaradacaq”

“Son vaxtlar Ermənistan Azərbaycanla şərti dövlət sərhədində hərbi təxribatlarını artırır. Təkcə aprelin 5-də Azərbaycan Ordusunun müxtəlif istiqamətlərdə yerləşən bölmələri, ümumilikdə, 30 dəfə atəşə tutulmuşdu. Sonrakı günlərdə də erməni tərəfi təxribatlarını davam etdirib. Nəzərə alaq ki, erməni tə-







rəfinin bu hərbi təxribatları aprelin 5-də Brüsseldə ABŞ-Ermənistan-Avropa İttifaqının üçtərəfli görüşünün keçirilməsi ərəfəsində və görüşdən sonra baş verib. Əlbəttə ki, bu, təsadüfi deyil, Brüssel görüşünün ”nəticəsidir”. Şübhəsiz, burada Fransanın ”rolu” istisna deyil. Bu fakt üçlü görüşün Cənubi Qafqazda gərginliyin yaradılmasına səbəb olması ilə bağlı Azərbaycanın narahatlığı öz təsdiqini tapır”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.

Deputat bildirib ki, Azərbaycan regionda sülhün təmin olunması istiqamətində təşəbbüslər göstərsə də, erməni tərəfi bu davranışları ilə sülhə maraqlı olmadığını nümayiş etdirir: ”Əslində, belə təxribatların törədilməsi gözlənilən idi. Çünki Fransa Avropa İttifaqında əsas söz sahiblərindən biridir və Parisin diqtəsi ilə Ermənistanın təxribatlara əl atması təəccüblü görünməməlidir. Xatırladaq ki, hələ sözügedən görüşdən bir neçə gün öncədən Ermənistan şərti sərhədə ağır texnika və canlı qüvvə toplamağa başlamışdı. Lakin onlar heç kimə güvənməməlidir. Ermənistan 2020-ci ildən etibarən baş verən hadisələri, təxribatlar törətdikdən sonra başına gələnləri unutmamalıdır. Yəni, həmin təcrübələr qarşı tərəf üçün dərs olmalıdır”.

Fransanın Ermənistanı silahlandırdığını xatırladan Sevinc Fətəliyeva qeyd edib ki, bu fakt rəsmi Parisin Cənubi Qafqazda vəziyyəti gərginləşdirmək cəhdidir: ”Məqsəd bölgədə yeni müharibəni alovlandırmaqdır. Bununla da, Fransa Ermənistana dəstək bəhanəsi ilə regiona daxil olmağa çalışır. Ona görə də, rəsmi Paris bəzi beynəlxalq aktorları da prosesə cəlb etməyə cəhd göstərir”.

”Azərbaycan tezliklə Ermənistanla sülh sazişinin imzalanmasının tərəfdarıdır. Lakin Ermənistan regionda vəziyyəti gərginləşdirməyə çalışmaqla münasibətlərin normallaşdırılması təşəbbüslərinə qarşı çıxır. Amma belə təxribatlar rəsmi İrəvanın özü üçün problemlər yaradacaq. Ermənistan müharibədə məğlub olub, ona görə də mövcud reallıqlarla barışmalı, razılaşmalara, o cümlədən beynəlxalq hüquq normalarına və götürdüyü öhdəliklərə əməl etməlidir. Ona görə də, rəsmi İrəvan Qərbdəki havadarlarına, xüsusilə Fransaya güvənməməlidir”,-deyə deputat vurğulayıb.

*Ləman Sərraf*



Elçin Bayramlı

# Kapitan Qrantın uşaqları

***Elmi fantastika janrının atası, ölməz yazıçı Jül Vernin ”Kapitan Qrantın uşaqları” əsəri dünya macəra ədəbiyyatının şah əsəri sayılır. Bu əsəri oxumayan çətin tapılar.***

Amma mövzumuz onunla bağlı deyil. Biz tamam başqa Qrantın uşaqlarından danışmaq istəyirik. Bu ”Qrant” həzrətləri ilə xalqımızın ilk tanışlığı Sovet İttifaqının dağılmasından sonra müstəqil respublika kimi yaşamağa çalışdığımız ilk dövrlərdən başlayır.

İttifaqın dağılmasından sonra qlobal güclərin, böyük dövlətlərin keçmiş Sovet respublikalarına hücumu başladı. Respublikamızda saysız hesabsız siyasi partiyalar, dini icmalar, etnik birliklər və sair qeyri-hökumət təşkilatları... və sayı-hesabı bilinməyən media orqanları yaranmağa başladı.

Adam lap məəttəl qalırdı- kiçik bir respublikada bu qədər çox sayda mətbu orqan və ictimai təşkilat nəyə və kimə lazımdır? Ölkənin, xalqın maliyyə-iqtisadi vəziyyəti son dərəcə ağır olduğundan bu qədər təşkilatı, qəzeti, icmanı kimin maliyyələşdirdiyi sual doğururdu.

Təsəvvür edin, əsrin ilk onilliyində ölkədə dini icmaların sayı 1000-i, siyasi partiyaların sayı 100-ü, qeyri-hökumət təşkilatlarının sayı 4000-i, media orqanlarının sayı isə 5000-i keçmişdi. Bu, ilk baxışda demokratiyanın təntənəsi kimi görünə bilər. Amma alt qatlarda məsələ başqa cürdür.

Artıq 90-ların ortalarından çoxlarına aydın oldu ki, belə təşkilatların yaranması, cəmiyyətin monolit formasından çıxarılaraq saysız siyasi, dini, etnik qruplara bölünməsi hansı xarici mərkəzlərə və niyə sərf edirmiş, pullar haradan və necə gəlirmiş.

Qrant adlandırılan bu çirkli pulları mədəni formalara salıb müxtəlif bəzəkli adlar altında ölkədəki qulbeçələrinə göndərirdilər. Nə bilim, demokratiyanın inkişafı naminə, vətəndaş cəmiyyəti uğrunda, hüquqi dövlətə doğru, qadın azadlığı, tolerantlıq mədəniyyəti və s. adlarla.

Ölkə boyu beynəlxalq təşkilatların seminar, treninq, konfrans və sair bu kimi tədbirlərinin sayı-hesabı itmişdi. Belə tədbirlərə, əsasən, aktiv gənclər dəvət edilir və onların beyninin yuyulması üçün peşəkar əcnəbi mütəxəssislər təlim keçirdi. Hətta fərqlənənləri xarici səfərlərə aparıb orda Qərbin ”demokratik”, ”zəngin” mənzərələrini onlara nümayiş etdirirdilər ki, ”lazımi” təfəkkürə yiyələnsinlər. Buna xüsusi xidmət orqanlarında ”verbovka” deyilir.

Amma gəlin görək, bu qrantları alan media və QHT-lər hansı layihələr həyata keçirir və bunların cəmiyyətə hansı faydaları olub? Gəlin görək, bu şəxslərin neçəsi xalqın problemlərini həll etmək üçün, cəmiyyəti obyektiv məlumatlandırma və maarifləndirmə üçün, mənəvi dəyərlərin və insan hüquqlarının qorunması üçün fəaliyyət göstərir. Çox az sayda olar.

İndi gələk politoloqlara, iqtisadçılara, ilahiyyatşünaslara, digər sahələrdə ”müstəqil” ekspertlərə. Heç kim bilməsə də, jurnalistlər yaxşı bilir ki, hər hansı bir siyasi, iqtisadi, sosial, dini problemlərin araşdırılması üçün obyektiv ekspert tapıb rəy almaq necə müşküldür. Yeri gəlmişkən, elə jurnalistlərin arasında da bu qrantlardan bəhrələnən xeylisi var. Onların yazılarından bu cəmiyyətə hansı faydalar toxunur, burası aydın deyil.

Biri Amerikanın mənafeyindən çıxış edəcək, biri Avropanın, o biri İranın, digəri Rusiyanın... ya da biri adını müxalifət qoyaraq ”qaraya da qara”, ”ağa da qara” deyəcək... Necə deyərlər, pulu kim verirsə, mahnını da o sifariş edir. Yalnız intellektual şəxslər, alternativ mənbələrdən faktları əldə edib, analiz edə bilənlər obyektiv qənaət hasil edə bilirlər. Bəs sadə xalq kimə inansın? Eyni hadisə ilə bağlı 2 fərqli mövqenin hansının düzgün olduğuna necə qərar versin?

Nə qədər ki, hamı savadlı deyil, hamının alternativ mənbələrə çıxışı yoxdur, hamı analitik təfəkkürə malik deyil, kütləni istənilən yalana inandırmaq asandır. Onlara inananlar çoxdur, çünki dediyimiz kimi savadlı və məntiqli adamlar azdır.

Belə çıxır ki, problemin həlli yolu hamının savadlanmasından və analiz qabiliyyətinə malik olmasından keçir. Bu da çox çətin görünür. Bu səbəbdən də, hələ ki, Kapitan Qrantın uşaqları ictimai rəyi lazımi şəkildə yönləndirə bilirlər.





# Əcnəbi ekspertlər: "Qərbin məqsədi Cənubi Qafqazda yeni müharibəni qızışdırmaqdır"

"Qərb niyə Ermənistanı müdafiə edir? Otuz ildən artıqdır ki, özü də işğalçı ölkə olan və Cənubi Qafqazda sabitliyi pozan bir ölkəni niyə müdafiə etmək lazımdır"

**ABŞ və onun nəzarətində olan peyk dövlətlər Ermənistan və Azərbaycanın Rusiyanın yardımı ilə əldə etdiyi razılaşmaların həyata keçirilməsinə xələl gətirməyə çalışırlar,- bu fikri Minskdə keçirdiyi mətbuat konfransında Rusiyanın xarici işlər naziri Lavrov bildirib. Onun fikrincə, kollektiv Qərb Cənubi Qafqazda vəziyyətin sabitləşməsi prosesinə müdaxilə etməyə çalışır. O, həmçinin qeyd edib ki, ABŞ Mərkəzi Asiyada da fəal işləyir və burada Moskvaya qarşı müxtəlif formatlar yaradılır. Lavrovun sözlərinə görə, Rusiyanın strateji müttəfiqləri böyük təzyiq altındadırlar, buna baxmayaraq, onlar inteqrasiya strukturlarının- Aİİ, MDB və KTMT-nin əsaslandığı ümumi dəyərlərə və prinsiplərə**





**sadiq qalırlar. Eyni zamanda, Lavrov əmindir ki, strateji baxımdan Qərb xətti uğursuzluğa məhkumdur.**

Aİ və ABŞ niyə bu qədər israrla regiondakı vəziyyəti pozmağa yönəlib? Rusiya Xarici İşlər Nazirliyinin rəhbəri niyə Qərbin Cənubi Qafqaz və digər regionlardakı strategiyasının iflasa uğrayacağına əmindir? Əcnəbi ekspertləri vəziyyəti "Caliber" analitik mərkəzinə şərh ediblər. Ekspertlərin fikirlərini oxucularımıza təqdim edirik.

Belarus Dövlət Universitetinin Beynəlxalq Münasibətlər Fakültəsinin Beynəlxalq Araşdırmalar Mərkəzinin direktoru Oleq Leşenyukun fikrincə, ABŞ və Aİ-nin Azərbaycan və Ermənistan arasında razılaşmaları pozmaq cəhdləri başa düşüləndir; bu, gözlənilən idi, çünki MDB-də xalqların davamlı inkişafına və sülhə yönəlmiş istənilən addımlar kollektiv Qərbin mənfi reaksiyasına səbəb olur.

"Diqqətlə baxsanız, istər Qərb dövlətləri ərazisində Azərbaycan və Ermənistan arasında paralel danışıqların təşkili cəhdləri, istərsə də Mərkəzi Asiya regionunda sülh və dostluq aksiyaları adı altında 5+1 formatı sabitliyi pozmağa yönələn cəhdlərinin hamısı MDB və digər regional təşkilatlarda destabilizasiya təşkil etməyə hesablanıb. Amma strateji baxımdan bu mümkün deyil, çünki xalqlarımızın ümumi tarixi keçmişi onu göstərir ki, biz birləşməyə və kənardan gələn istənilən təhlükəni, istər təcavüz, sanksiyalar,





informasiya müharibələri və s. dəf etməyə qadirik",- O.Leşenyuk vurğulayıb.

Siyasi elmlər namizədi, rusiyalı politoloq Dmitri Qradovun fikrincə, Lavrovun bəyanatlarının Rusiyanın MDB-dəki müttəfiqlərinin və tərəfdaşlarının iştirakı ilə səsləndirilməsi təsadüfi deyil. Bununla da Moskva eyni vaxtda bir neçə kresloda oturmağa çalışan, Qərblə sıx əməkdaşlıq mövzusunda danışıqlar aparan və görünüş xatirinə hələ də Moskvaya bir qədər loyallığını qoruyub saxlayan hər kəsə öz mesajını çatdırmağa çalışır.

"Müttəfiqlər düşərgəsini qoruyub saxlamağa və təhlükəsizliyini təmin etməyə çalışan Kremlin narahatlığı tamamilə başa düşüləndir, bir halda ki, Qərb həqiqətən də son illərdə Rusiya ətrafında yerləşən ölkələrdə siyasi sabitliyi pozmaq üçün daha çox səylər göstərməyə başlayıb və bu ölkələrin bir qayda olaraq, Rusiya ilə normal əməkdaşlığı və uzunmüddətli əlaqələri var. Fikrimcə, Ukraynadakı müharibə Qərbin Moskva ilə MDB ölkələri arasında münasibətlərə kifayət qədər açıq şəkildə zərər vurmağa başlaması üçün sadəcə əlverişli bəhanədir. Belə bir siyasət əvvəllər də Avropa və ABŞ tərəfindən aparılırdı və bu mənada bu böyük oyunçulara, ümumiyyətlə, yalnız bir şey lazım idi- Rusiyanın mümkün qədər çox müttəfiqini öz tərəflərinə çəkmək. Lakin indi Cənubi Qafqazda baş verənlər hiddətə səbəb olmaya bilməz. Aİ və ABŞ faktiki olaraq Cənubi Qafqazda yeni müharibəni qızışdırırlar", - deyə politoloq əmindir.

Onun fikrincə, Qərb həm 44 günlük müharibədən əvvəl, həm də ondan sonra sülh təşəbbüsləri altında öz planlarının əsl məqsədini gizlədərək uzun müddət özünü göstərdi. Amma nəhayət, maskalar atıldı və indi aydındır ki, nə Brüssel, nə də Vaşinqton Azərbaycanın mövqeyinin ədalətli olması və ya mövqeyinin əsaslandırılması ilə maraqlanmır.

"Sual olunur, niyə Qərb Ermənistanı müdafiə etməlidir? Otuz ildən artıqdır ki, özü də işğalçı ölkə olan və Cənubi Qafqazda sabitliyi pozan bir ölkəni niyə müdafiə etmək lazımdır? İndi isə Azərbaycan regionda sülhü bərpa etməyə çalışarkən, İrəvanı sülhə çağıranda Aİ və ABŞ tam əksini göstərirlər- Ermənistana açıq dəstək ifadə edirlər, üstəlik, onlar onun iqtisadi artımını və hərbi potensialı dəstəkləmək və bərpa etmək niyyətindədirlər. Aydındır ki, belə aktiv dəstək sayəsində İrəvan yenidən Cənubi Qafqazda yeni eskalasiya planlarını həyata keçirəcək. Yəni, bu oyunda Qərb öz maraqlarını açıq şəkildə ortaya qoydu və təsdiq etdi ki, o, ölkələrin suverenliyinin, beynəlxalq hüquq prinsiplərinin qorunub saxlanmasında qətiyyən maraqlı deyil- bütün bunlar söz oyunudur və ən yaxşı halda ikinci dərəcəlidir.

Bununla belə, məncə, Lavrov öz mesajında haqlıdır- belə siyasət demək olar ki, bütün hallarda uğursuzluğa məhkumdur. Fakt budur ki, Mərkəzi Asiya ölkələri Qərb "tərəfdaşlarının" oyun tərzini və onlarla mümkün qədər sıx əlaqələr qurmaq cəhdlərinin nəyə gətirib çıxardığını mükəmməl görürlər. Amma fakt budur ki, ölkələrin coğrafi mövqeyini dəyişmək mümkün deyil, Mərkəzi Asiya ölkələri onların Rusiya ilə sərhədlərə yaxın yerləşməsinin özəlliyini yaxşı bilirlər və hər bir əməkdaşlıq təklifi mikroskop altında araşdırılır, bütün risklər diqqətlə ölçülür.




Regionun geosiyasi yeri heç vaxt imkan verməyəcək ki, Mərkəzi Asiya xalqları Qərbin qurğuları və örtüyü altında yaşamağa köçsünlər- bu, məntiqsiz və əsassızdır. Əməkdaşlıq etmək olar, bəli, amma Qərbin vassalı olmaq- təbii ki, yox. Ola bilsin ki, bu gündəlik alqoritmi pozmağa çalışan yeganə oyunçu Ermənistandır ki, bu da açıq-aydın unikal erməni hərəkət və qərar qəbuletmə alqoritminə malikdir. Lakin 44 günlük müharibənin və hətta ötən ilin nəticələrinin nümunəsindən gördüyümüz kimi, erməni strateqlərinin dühası, bir qayda olaraq, uğursuzluğa düçar olur. İrəvan həmişə başqasının hesabına qazanmaq istəyir, amma təəssüf ki, bu, həmişə baş vermir",- Qradov yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***

# "Milli Şura" növbəti dəfə özünü rüsvay etməyə hazırlaşır

## Cəmil Həsənli icazəsiz aksiya öncəsi "Yaşlıların müdafiəsi" təşkilatının sədri Mişel Şirakla nəyi müzakirə edib?

Uzn müddət ki, müxalifətçilik fəaliyyətini ancaq social şəbəkələr vasitəsi ilə şər və böhtanlar paylaşmaqla yekunlaşdıran dağıdıcı müxalifət son günlər mitinq keşqınına çəkilib, susmağa üvə müəyy\ən hallar da sosial şəbəkələr vasitəi ilə təçirmək sevdasına düşüb. Təəccüblü və bir o qədər də ironiya ilə qarşılanan haldır. Ən azı ona görə ki, bu məxluqlar hansı günlərinə və sosial bazalarına arxalanıb, aksiya keçirmək kimi çətin və ağır bir işi çiyinlərinə götürməyə çalışırlar. Təbii ki, sosial bazadan məhrum olan və başdan ayağa qədər ləkəli olan AXCP və Mİlli Şura rəhbərliyinin aksiya keçirmək arzularının reallaşması mümkün deyil. Bunu söz yox ki, özləri də anlayırlar. Lakin maddi və mənəvi dəstək aldıqları xarici ağalarının təzyiq və təsirləri onları kor-koranə mitinq keçirmək barə də qərarə verməyə məcbur edib. Heç şübhəsiz ki, mitinqin baş tutması ilə Əli Kərimli , Cəmil Həsənli və ətrafında olan trollar növbəti dəfə rüsvay olacaqlar. C.Həsənli və Ə.Kərimli isə daha böyük rüsavayçılqdan qaçmaq və məsxərə obyekti olmaqdan yayınmaq üçün mitinq şousunu Bakı Şəhər İcra Hakimiyyətinin müəyyənləşdirdiyi Lökbatan qəsəbəsi, 28 May küçəsi, "Neftçi" idman klubunun Qaradağ təlim idman bazasındakı yer də deyil, əhalinin və avtomabillərin sıx hərəkət etdiyi ərazilər də keçirməyi israr edirlər. Aprelin 21-də keçirməyi arzu etdikləri aksiyanıda "28 may" və "Nərimanov" metrostansiyalarının qarşısında keçirməyi xəyal edirlər. Lakin bu mümkünsüzdür. Çünki, hər bir ölkə vətəndaşının hüquqları qanunla qorunur. Kimsə öz hikkəsinə və siyasi marağına əsaslanıb, ümumilik də cəmiyyətin döğal hüquqlarını poza bilməz.

### Niyə "Milli Şura" və AXCP məhz metrostansiyalarının önündə aksiya keçirməyi israr edirlər?

Bu arada "Milli Şura"nın qeyri-rəsmi rəhbəri, AXCP sədri Əli Kərimli nəzər də tutduqları metrostansiyaların önündə mitinqin keçirilməsinə icazə verilməyəcəyi təqdir də icazəsiz aksiyanın keçirilməsinə çalışacaqlarını bildirib. Bu isə onu təsdiq edir ki, Ə.Kərimli



üçün çoxluğun tələbi maraqlı deyil. Həm də anlamır ki, icazəsiz aksiyanın keçirilməsi qanunla qadağandır. Əgər icazəsiz aksiyanın keçirilməsinə maraq göstərilirsə deməli Ə.Kərimli və ətrafında olan trollar polislə qarşıdurma yaradıb, bunu xaricdəki himayədarlarına nümayiş etdirməyi planlaşdırıblar. Nəzərə almaq lazımdır ki, Ə.Kərimli, C.Həsənli və digər boşboğazlardan ibarət olan tör-töküntü sosial şəbəkə hesablarında iddia edirlər ki, aksiyalar da Avropa İttifaqının bayrağını qaldıracaqlar. Niyə məhz Avropa İttifaqının? Nədən BMT-nin, YUNESKO-nun, ən azı dost qardaş ölkə olan Türkiyənin və ya Pakistanın deyil, məhz Avropa İttifaqının bayrağının aksiyalarda qaldırılmasını nəzər də tuturlar. Digər tərəfdən Azərbaycanın üçrəngli bayrağı olduğu hal da başqa ölkənin və ya beynəlxalq təşkilatının bayrağını dalğalandırmağa nə ehtiyac var? Burdan aydın olur ki, icazəsiz aksiyanı planlaşdıranlar faşist ideologiyasının inkişaf etməyə başladığı Almaniyanın, Niderlandın, erməni təəssübkeşliyindən çıxış edərək Azərbaycana qarşı qərəzli mövqe sərgiləyən Fransanın təmsil olunduğu Avropa İttifaqının qaranlıq dairələrindən xüsusi tapşırıqlar alıblar.

### Fransız "hüquq müdafiəçisi"

### Mişel Şirak Cəmil Həsənli ilə nəyi müzakirə edə bilər?

Mövcud fakt ondan ibarətdir ki, Avropa İttifaqı, xüsusilə də Almaniya, Niderland, Fransa və digər başıpozuq quldur dəstələrinə xas xüsusiyyəti nümayiş etdirən ölkələr Cənubi Qafqaz da sülhün və təhlükəsizliyin təmin olunmasında maraqlı deyillər. Hər vəchlə onların ələltası funksiyasını yerinə yetirən Ermənistana maliyyə, siyasi və hərbi dəstək göstərməklə bölgədəki sabitliyi pozmağa çalışırlar. Lakin Azərbaycan çox güclü və qüdrətli dövlətdir, hansısa erməni itinin hürməsi, fransızın anqırması, almanın "hay Hitler" deməsi ilə Azərbaycan geri çəkilə və sabitliyin pozulmasına rəvac verə biləcək addımı atmaz. Azərbaycan o zaman dəmir yumruğu işə sala bilər ki, real təhlükə sərhədə yaxın olsun. Bu halda hansı qüvvənin Ermənistanın dalında olmasından asılı olmayaq həmin peşkanı dalındakı ilə bilikdə məhv edər. Necə ki, 44 günlük Vətən Müharibəsində və 23 saat 44 dəqiqə çəkən antiterror əməliyyatları ilə öz gücünü erməni terrorunun başını əzməklə nümayiş etdirdi. Əminliklə demək olar ki, bunun real olduğunu peşka və arxasındakılarda anlayırlar. Ona görə də, hiyləgərliklə Azərbaycana təzyiq etmək və böyük gücünə xələl gətirməyə çalışırlar. Bakıdakı təmsilçilərini də icazəsiz aksiyalar keçirməyə səfərbər etmələri də hiyləgər planlarının tərkib hissəsidir. Dünən mərkəzi qərargahı Parisdə yerləşən "Yaşlıların müdafiəsi" təşkilatının sədri Mişel Şirakın "Milli Şura"nın sədri Cəmil Həsənli ilə 46 dəqiqə 34 saniyə qızğın telefon söhbətləri aparması Fransanın xüsusi xidmət orqanlarının Bakıdakı təmsilçilərinin planlaşdırdıqları icazəsiz aksiyaya önəm verdiklərini göstərir. Telefon danışığının əsas motivi təbii ki, 21 aprel mitinqinin necə və hansı formada keçirilməsi olub. Ənənəsinə uyğun olaraq C.Həsənli demaqoqluq edib, hakimiyyətin onların Sərbəst Toplaşmaq Azadlıqlarını pozduqlarını bildirib. Söz yox ki, bu cür hay-küyün, böhtan xarakterli danışığın kökündə C.Həsənlinin siyasi hiyləgərlikləri dayanır. Daha doğrusu bu cür şər və böhtanlardan geniş şəkil də istifadə etməklə ağalarına "çətin durumda olduqlarını" anlatmağa və bunla da daha çox qrant almağa ümid bəsləyiblər. Söz yox ki, aksiyanın Bakı Şəhər İcra Hakimiyyətinin müəyyənləşdirdiyi ərazidə keçirilməsi barə də mitinqin təşkilatçılarına məktub ünvanlandıqdan sonra, həngamə başlayacaq. Milli Şura və AXCP funksionerləri əvvəlcədən planlaşdırdıqları ssenari üzrə hərəkət edərək metrostansiyaların önündə aksiyalar keçirməyə çalışacaqlar. Təbii olaraq bu hal da asayişi qorumaq bilavasitə vəzifə borcu olan polis əməkdaşları onları ərazidən uzaqlaşdıracaqlar. Bu hal da öyrədilmiş muzdullu mitinq şivənçiləri hay-küy qaldıracaq və polislə qarşıdurma yaratmağa çalışacaq. Gözlənildiyi planlarının baş tutduğunu anlayınca ərazidən şəkilləri çəkib, Mişel Şirak kimi barbarlara göndərəcəklər. Səhəri gün bəzi xarici KİV-lər də və sosial şəbəkələr də zarıltı səsləri eşidiləcək, Azərbaycana qarşı böhtan xarakterli hesabatlar, açıqlamalar yayımlanacaq. Az sonra Əli Kərimlinin, C.Həsənlinin və onların ətrafında dolaşan trolların sosial şəbəkələr də statuslarına rast gəlinəcək: "Aksiya baş tutmuş hesab olunur". Başqa cür də ola bilməz. Çünki, "heç kim öz ayıranına turş deməz". Lakin reallıq ondan ibarət olacaq ki, "Milli Şura" və AXCP növbəti dəfə mitinq şousu ilə özlərini rüsvay etmiş olacaqlar.

**İLHAM ƏLİYEV**

---

# "Bunu etməyən işçilərin pensiya təminatında problem yarana bilər"

"Əmək hüququ milli hüququn aparıcı sahələrindən biridir". Bu sözləri SİA-ya açıqlamasında hüquqşünas Xanlar Sətullayev deyib. O bildirib ki, Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsi məhz əmək hüququna həsr edilib: "Əmək münasibətləri işçilər ilə işəgötürənlər arasında əmək müqaviləsi əsasında yaranan və əmək hüquq normaları ilə tənzimlənən münasibətlərdir. Əmək münasibətlərinin bir tərəfi qismində işçi, digər tərəfin qismində isə işəgötürən çıxış edir. Əmək münasibətlərini tam anlamaq üçün işçi, işəgötürən və əmək müqaviləsi kimi əsas anlayışları bilmək vacibdir.

İşçi işəgötürənlə fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlayaraq müvafiq iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxsdir. 15 yaşına çatmış hər bir şəxs əmək müqaviləsi bağlamaq hüququna malikdir. İşəgötürən isə tam fəaliyyət qabiliyyətli olub işçilərlə əmək müqaviləsi (kontrakt) bağlamaq, ona xitam vermək, yaxud onun şərtlərini dəyişdirmək hüququna malik mülkiyyətçi və ya onun təyin (müvəkkil) etdiyi müəssisənin rəhbəri, səlahiyyətli orqanı, habelə fiziki şəxsdir.

Əmək müqaviləsi işəgötürənlə işçi arasında fərdi qaydada bağlanan əmək münasibətlərinin əsas şərtlərini, tərəflərin hüquq və vəzifələrini əks etdirən yazılı müqavilədir. Bəzi hallarda işəgötürənlər tə-



rəfindən işçilərlə əmək müqaviləsi əvəzinə xidməti müqavilə bağlanılır. Lakin xidməti müqavilə hər hansı xidmətin göstərilməsi məqsədi ilə sifarişçi və icraçı arasında bağlanılan mülki-hüquqi müqavilədir və mülki qanunvericiliklə tənzimlənir. Lakin əmək müqaviləsi işçinin mənafeyi baxımından daha üstündür. Belə ki, Əmək müqaviləsinin predmeti işçinin əmək fəaliyyətinin özüdürsə, mülki-hüquqi müqavilənin predmeti yerinə yetiriləcək işin və ya xidmətin nəticəsidir.

Əmək müqaviləsindən fərqli olaraq mülki-hüquqi müqavilə bağlanıldığı halda müqavilədə nəzərdə tutulmayıbsa, işçiyə əmək kitabçası açılmır və iş stajı hesablanmır. Əmək müqaviləsinə əsasən işəgötürən işçiyə qanunvericiliklə müəyyən olunmuş qaydada təhlükəsiz və sağlam əmək şəraiti yaratmalı olduğu halda, mülki-hüquqi müqavilədə sifarişçinin üzərinə qanunvericiliklə belə bir öhdəlik qoyulmur.

Əmək müqavilələrində işəgötürən işçini fərdi mühafizə vasitələri ilə təmin etməli olduğu və əməyin mühafizəsinə görə cavabdehlik



daşıdığı halda, mülki-hüquqi müqavilələrdə icraçı bunları özü etməli və ya bu öhdəliklər müqavilədə əlavə şərtlər nəzərdə tutulmaqla tənzimlənməlidir. Əmək müqaviləsi ilə çalışan işçi ilə tam maddi məsuliyyət barəsində müqavilə bağlanmamışdırsa, işəgötürənə dəymiş ziyana görə işçi orta əmək haqqı məbləğində maddi məsuliyyət daşıyır. Mülki-hüquqi müqavilələrdə isə icraçı müqavilədə başqa şərt nəzərdə tutulmamışdırsa dəymiş ziyana görə tam məbləğdə məsuliyyət daşıyır".

Onun sözlərinə görə, əmək müqaviləsi bağlamış işçinin əmək qanunvericiliyi ilə müəyyən edilmiş əmək (iş yerinin saxlanılması, məzuniyyətlərin verilməsi, ezamiyyə xərclərinin ödənilməsi, təhsilinin davam etdirilməsi və s.) və sosial təminat (işdənçıxarma, əmək qabiliyyətinin müvəqqəti itirilməsi və digər hallarda sosial müavinətlərin ödənilməsi, sosial sığortanın həyata keçirilməsi və s.) hüquqları olduğu halda, mülki-hüquqi müqavilələrdə icraçının yalnız müqavilədə göstərilən və qanunvericiliklə bu



hal üçün müəyyən edilən təminatlardan istifadə etmək hüququ vardır: "Əmək müqaviləsi bağlandığı halda işçi üçün sosial sığorta haqları işəgötürən tərəfindən əmək haqqı fondundan, işçiyə hesablanmış əmək haqqından ödənildiyi halda, mülki-hüquqi müqavilələr üzrə işləyənlər üçün bu ödənişlər fərqlidir və yalnız sığortaedən qismində çıxış edən tərəfdən tutulur.

Sadalanan fərqlərdən də göründüyü kimi əmək müqaviləsi əvəzinə mülki-hüquqi müqavilələr bağlamaqla şəxslər Əmək Məcəlləsi ilə təsbit edilmiş bir sıra hüquq və imtiyazları itirmiş olurlar. Əmək müqaviləsi 2 nüsxədən az olmayaraq tərtib olunmaqla yazılı formada bağlanılır, tərəflərin imzası (işəgötürən hüquqi şəxs olduqda möhürü ilə də) ilə təsdiq edilir və onun bir nüsxəsi işçidə, digər nüsxəsi isə işəgötürəndə saxlanılır.

Nə qədər maarifçilik işləri aparalsa da, təəssüf ki, hələ də öz hüquqlarını anlamayan işçilər var. Belə ki, bəzi işəgötürənlər hələ də "ikili mühasibatlıq"dan istifadə edirlər ki, nəticədə işçilər maaşın bir hissəsini kartla, digər hissəsini nağd şəkildə alırlar. Bu isə onların sosial sığorta ödənişlərinə və gələcəkdə normal pensiya təminatlarına birbaşa mənfi təsir göstərir. Ona görə də hər bir işçi öz hüquqlarını bilməli və əmək müqaviləsində əmək haqqının tam şəklidə yazılmasını tələb etməlidir. Qeyd edim ki, hər bir işçi e-sosial.az platforması üzərindən əmək müqaviləsi ilə bağlı məlumatları əldə edə bilər".

**Söylü Ağazadə**

# Vəkilin də xor gördüyü qadınları kim müdafiə edəcək?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*







Vəkillər Kollegiyasının üzvü, hüquqşünas Əkrəm Həsənov facebook səhifəsində adqoyma prosesində razılaşmaya gələ bilməyən ailə barədə öz fikirlərini paylaşıb. Hüquqşünas, bir hüquq adamına yaraşmayacaq fikirlərinə görə cəmiyyət tərəfindən haqlı iradla qarşılaşıb. Vəkilin statusundan: "Gənc bir ailə yeni doğulan uşağa ad qoymaq üstündə mübahisə edib. Belə ki, ata uşağa öz anasının Xeyransa adını vermək istəyib. Bununla razılaşmayan qadın demarş edərək evi tərk edib. Əslində, bu problem bir daha göstərir ki, ailədə heç vaxt bərabərlik ola bilməz. Bir nəfərin sözü həlledici olmalıdır. Təbii ki, ərin! Bu, o demək deyil ki, müzakirə olmamalıdır. Olmalıdır. Amma son söz ərdə olmalıdır. İndi görün, nə günə qalmışıq ki, kişi uşağının adını belə qoya bilmir. Kimdir günahkar? Günahkar kişilərdir. Çünki cılızlaşaraq ailədə iqtidarı əldən verə-verə gedirlər. Başa düşmürlər ki, qadının nə deməsi əhəmiyyətli deyil".

Bu fikirləri bir kişinin yazması hardasa başadüşülən ola bilərdi, "cinslər arası ayrı-seçkilik, gender təzyiqi, kişi hegemonluğu" deyib ötüşdürə bilərdik. Amma bu fikri insanların, dolayısı ilə qadınların da hüquqlarını müdafiə edən bir hüquqşünasın yazması insanda haqlı olaraq təəssüf hissi doğurur. Qadınlara qarşı bu cür düşüncəsi olan bir kişinin məhkəmə salonlarında kimin haqlarını müdafiə etdiyi də mübahisəlidir. Belə çıxır ki, bu kimi vəziyyətlərdə qadınlar məhkəmədən öncə uduzur əslində.

Doğuş bir qadının həyatında verdiyi ən böyük imtahandır, biz o imtahandan dəfələrlə keçirik. Uşağı 9 ay ana bətnində biz böyüdürük, ifadə etməyə heç bir sözün kifayət etməyəcəyi, bu dünyada alternativi olmayan doğuş ağrısını çəkirik. Araşdırmalara görə, insan bədəni ancaq 45 Del (ağrı vahidi) ağrıya dözə bilir. Lakin analar doğuş zamanı 57 Del ağrı hiss edir. Bu 20 sümüyünüzün eyni anda sınması zamanı hiss edə biləcəyiniz bir ağrıya bərabərdir və analar bilə-bilə, sevərək, istəyərək çəkir bu ağrını. Kimin üçün? Övladı üçün.

O uşağın qazı var, qulaq ağrısı, diş ağrısı, yuxusuzluğu, narahatlığı var - hamısını balamızla birgə keçiririk. O bir dəfə ağrıdan qışqıranda biz min dəfə ölüb-dirilirik. Gecələri dirigözlü sabah edirik, qucağımızda uşaq evdə o yan-bu yana yol metrələyirik. Bunu bizimlə birlikdə kim edir? Ata, nənə-baba şirin yuxuda olanda biz mürgülü-mürgülü doğan günəşi salamlayırıq. Ad bizim haqqımızdır, ad ananın haqqıdır. Ata uşağa ad qoya bilməz? Əlbəttə ki, qoyar, amma ananın razılığını almaqla. Ananın xeyir-dua vermədiyi ad övladına xeyir gətirməz.

Məlumat üçün qeyd edim ki, sözügedən ailədə ata övladına öz anasının adını - Xeyransa adını qoymaq istəyib. Xeyransa adı bir dövrün ən çox qoyulan adlarından olub, mənası "ən yaxşı qadın" deməkdir, amma günümüzdə köhnəlmiş ad hesab edilir. Ad mənaca yaxşı ola bilər, amma dövrlə də uyğunlaşmalıdır. Uşaq böyüyüb məktəbə gedəcək, yoldaşları olacaq. Uşaqlar bəzən öz yaşıdlarına qarşı çox qəddar ola bilirlər, qəribə hesab etdikləri adlara qarşı humanist ola bilmirlər. Məktəbli övladı olan valideynlər bilər, adına görə məktəbdə stiqma, bullinq ilə üzləşən uşaqlar var.

Bir neçə ay öncənin söhbətidir, məktəbdən qızımı götürməyə getmişdim. Həyətdə zəngin çalınmağını gözləyirdik. Zəng vuruldu, uşaqlar hay-küylə həyətə axışdı. Hərə öz valideynini axtarır. Yaxınımdan bir səs eşitdim: "Gülçiçək, Gülçiçək, buradayam gəl". Anası idi, qızını götürməyə gəlmişdi. Adı eşidən bütün valideynlər çevrilib baxdı, ad üzümüzdə təbəssüm yaratdı. Axı daha qoyulmur belə adlar.

Doğrusu, uşaqlara həm milli köklü, həm də müasir ad seçməyin tərəfdarıyam. Həmçinin mənası gözəl, bütün dillərdə səslənməsi estetik, virtual platformada istifadəsi rahat olmalıdır. O səbəbdən uşaqlara ad seçəndə tərkibində ə, ü, ğ, x, ö, ş kimi hərflər olan adlar olmamasına diqqət etmək lazımdır ki, virtual platformada yazıldıqda dəyişikliyə uğramasın.

Məsələn, Lalə adını virtual məkanda ya Lala, ya da Lale olaraq yazmalı oluruq, amma Sevda adını olduğu kimi yazırıq. Bu hərfləri ona görə deyirəm ki, onlar olanda ad başqa dillərdə başqa cür tələffüz edilir. Əli adını başqa dildə tələffüz edəndə Ə hərfi A ilə əvəzlənir, amma tutaq ki Azad adı dəyişmir.

Çox görürəm, uşağına Məhəmməd adı verib onu Maqa, Mika çağıranları. Adı bəyənərək, sevərək qoymaq lazımdır uşağa, nə uşaq, nə valideyn narahat olmamalıdır o addan. Qadınlar var, çox ağrılı hamiləlik dövrü olur, əziyyətlə başa vurur, bütün risklərə rəğmən övladını dünyaya gətirir, amma öz istədiyi adı qoya bilmir övladına. Ailə böyükləri müdaxilə edir, ər icazə vermir, nəticədə hamının istədiyi olur, anadan başqa. Çoxdur belə analar, təklikdə övladını qoymaq istəyib, qoya bilmədiyi adla çağırır.

Ölkəmizin adqoyma mədəniyyətində təkrarlanan ad çoxdur, bir sinifdə 3 Mədinə, 4 Məhəmməd, 2 Hüseyn, 5 Zəhra olur. Kim olduğu anlaşılsın deyə ayama qoşulur uşaqlara - eynəkli Məhəmməd-qara Məhəmməd, balaca Zəhra-uzun Zəhra, arıq Hüseyn, kök Hüseyn. Əslində ad alternativimiz çoxdur, amma var olan adları bəyənməyən olanda da yaradıcılığı olan özü yeni ad yarada bilər, milli köklü və gözəl mənası olan. Bütün hallarda uşaqlara gözəl ad verin ki, utanmasın adından. Xeyransa adı mahiyyətcə, mənaca gözəl ola bilər, amma çağımızla səsləşmir, körpə uşağa bu adı vermək onu yaşından tez böyütmək deməkdir. Adın çəkisi ağırdır çünki.

Bir qız tanıyırdım, Balabacı qoymuşdular adını, nə məktəbdə, nə yaxın çevrəsində heç kimlə ünsiyyət qurmurdu qız, yeni tanışlıqlardan qaçırdı həmişə. Valideyninə yalvarırdı adını dəyişsinlər deyə, əhəmiyyət vermirdilər. 18 yaşı olan kimi məhkəməyə müraciət etdi, adını dəyişib Nazlı etdi. Anası öz nənəsinin adını vermişdi, dəyişməyə icazə vermirdi, dəyişəndə də "haqqım haramın olsun" demişdi övladına. Siz gənc qızın seçdiyi adın məna yükünə, anlatdığı anlama, ifadə etdiyi incə detala baxın, nazının keçmədiyi ailədə varlığını sübut etmək üçün Nazlı etdi adını.

İllər əvvəl Salyanda dərmandan zəhərlənib ölən qız vardı, adı Gülmira. Onun adı özündən əvvəl doğulmuş iki bacısına da verilib. Hər iki Gülmira uşaq ikən ölüb - biri su quyusuna düşüb ölüb, onun ölümündən sonra doğulan qıza da Gülmira adı verilib, o da yanğında ölüb. Ailə isə inadla eyni adda israrçı olub, ölən qızlardan sonra doğulan 3-cü qız övladlarına da Gülmira adını verib, o qız da dərmandan zəhərlənib öldü. Ad taledir deməli.

Tanıdığım bir ailənin oğul balasının adını Güloğlan qoyublar. Baba israrla öz adını verib uşağa, anası uşağın adını qətiyyən tələffüz etmir, "ürəyim", "balam" kimi əzizləyici sözlərlə çağırır. Adqoyma haqqında danışanda ananın gözləri dolur, kövrəlir. Ona, öz övladına ad qoymaq haqqını tanımayıblar, bir dəfə qəhərlənərək "balamın adını Cavidan qoymaq istəyirdim, babası icazə vermədi ki, öz adımı qoyacam. Qoydu, amma mən balamın adını deyə bilmirəm, içimdən gəlmir. Məktəbdə, küçədə uşaqlar lağ edir adına" dedi.

Uşaqlar bizim deyil, biz onları yaradandan əmanət götürmüşük. Onlar üçün planlar quranda, haqlarında qərar verəndə iki dəfə düşünməliyik. Nənə, baba əzizdir, amma onların adı hökmən yeni doğulan körpəyə verilməli deyil. Gəlinə qarşı münasibətlər də tənzimləyə beilir bəzən bu təklifləri, elə qayanana-qaynata ola bilərsiniz ki, gəlin özü sevərək təklif etsin adınızı övladına qoymaq üçün. Bu zorakı olmamalıdır, olmaz. Adqoyma mərasimi əhəmiyyətlidir, yüz ölçüb, bir biçmək lazımdır. Uşaqların öz adından utanmasına səbəb olmayın. Təsəvvür edirəm, oğluma Balaqardaş, qızıma Xırdaxanım adı versəydik nə olardı ? Onlar da bir gün ad dəyişərdilər haqlı olaraq.





Məlumat üçün qeyd edək ki, Ailə Məcəlləsinin 53.4-cü maddəsinə əsasən valideynlər arasında uşağın ad və soyadına münasibətdə razılıq olmadıqda yaranan fikir ayrılığı yerli icra hakimiyyətinin qəyyumluq və himayə orqanı tərəfindən həll olunur. Əgər bu mərhələdə də bir nəticə əldə edilməsə işə məhkəmə baxır.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
17 aprel
2024-cü il

# "Viruslar orqanizmə dağıdıcı təsir göstərirlər"

## HƏKİMDƏN AÇIQLAMA

"Viruslar həyatın qeyri-hüceyrəvi formasıdır. Yəni viruslar hüceyrə deyil. Bunların hüceyrəyə xas ayrıca nüvəsi, sitoplazması yoxdur. Viruslar hüceyrə kimi bölünüb çoxalmır. Onlar öz surətlərini yaradırlar, buna "replikasiya" deyirlər. Viruslar yalnız hüceyrənin resurslarından faydalanırlar, daxildə artıb çoxalmaq üçün orqanizm onlara ən uyğun mühitdir". Bu sözləri SİA-ya danışan həkim Adil Qeybulla deyib. Onun sözlərinə görə, viruslar artıb çoxaldıqca orqanizmin resurslarını xərcləyirlər: "Əks halda kənarda çoxala bilməzlər. Buna görə də orqanizmə daxil olduqda müxtəlif təsir göstərirlər. Pandemiyada biz gördük ki, koronavirus insan orqanizmində nə qədər təlatümlər yaratdı. Pandemiyadan sonra xərçəng və müxtəlif xəstəliklərin çəkisi bir neçə dəfə artdı. Viruslar orqanizmə dağıdıcı təsirlər göstərirlər. Onlar orqanizmdə çox dərin izlər buraxırlar. Təəssüf ki, hamısını tam araşdırmaq mümkün deyil".



Həkim əlavə edib ki, pandemiyadan sonra dünyada çox geniş tədqiqatlar başlayıb: "Nəticələri çox güman ki, bu il və ya gələn ilin əvvəlində biləcəyik. Viruslarla mübarizədə vaksinasiya imkanlarından istifadə edib qorunmaq lazımdır. Hansısa virusa qarşı vaksin varsa, onu vurdurmaq mütləqdir. Nümunə üçün deyim ki, Hepatit B virusunun vaksini var. Bu virus demək olar ki, sağalmır, qaraciyər serrozunu yaradır.

Bəzi viruslar var ki, onlar onkogendir. Məsələn, insan papilloma virusu qadınlarda ginekoloji xərçəng yaradır. Viruslar hüceyrələrdə etdikləri dəyişikliklər nəticəsində mutasiya törədə bilərlər. Bu baxımdan mümkün qədər xəstələnməmək lazımdır. Xəstələnən təqdirdə rejimə diqqət etmək lazımdır ki, orqanizm viruslarla mübarizə apara bilsin. Əsas odur ki, xəstəlik ağırlaşmasın. Ağırlaşmış xəstəlik orqanizmdə ciddi izlər buraxır".

*Ləman Sərraf*

## Bu gün Bakıda 24 dərəcə isti olacaq

Aprelin 17-nə gözlənilən hava proqnozu açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən SİA -ya verilən xəbərə görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim cənub küləyi əsəcək. Havanın temperaturu gecə 9-14° isti, gündüz 19-24° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 762 mm civə sütunu olacaq. Nisbi rütubət gecə 60-65 %, gündüz 45-55 % olacaq. Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi bəzi şərq rayonlarında arabir güclənəcək. Havanın temperaturu gecə 9-14° isti, gündüz 22-27° isti, dağlarda gecə 5-10° isti, gündüz 15-20° isti olacaq.



## TƏBRİKLƏR!!!

Bu gün Rauf Əhmədovun doğum günüdür. Ailə üzvləri, yaxın qohumları, eyni zamanda dostu Məmmədhəsən Məmmədov onu əlamətdar gün münasibətilə ürəkdən təbrik edir, ona həyatın ən şirin neməti olan can sağlığı arzulayırlar.

Qoy Allah verən həyat payını xoşbəxt yaşasın!!!



## ELAN

Şirvan şəhəri, Xəqani 11 küçəsi, 380 A ünvanında yerləşən Mehdiyeva Nəzakət Bibiqulu qızına fərdi yaşayış üçün ayrılmış torpaq sahəsinin AN 751770 saylı və 20.10.2022- ci il tarixdə verilmiş Torpaq sahəsinin planı və ölçüsü itdiyi üçün etibarsız sayılır.


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!




«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Bakıda evdən meyit tapılıb

**Bakı şəhərinin Xətai rayonunda evdən meyit tapılıb. Bu barədə SİA-ya Fövqəladə Hallar Nazirliyinin (FHN) Mətbuat xidmətindən məlumat verilib.**



Bildirilib ki, FHN-in "112" qaynar telefon xəttinə Bakı şəhərinin Xətai rayonunda 1 nəfərin mənzildə bağlı qapı arxasında köməksiz vəziyyətdə qalması barədə məlumat daxil olub. Məlumatla əlaqədar FHN-nin Bakı Regional Mərkəzinin müvafiq xilasetmə qüvvələri çağırış üzrə cəlb olunub. Həyata keçirilən tədbirlər nəticəsində 1 nəfərin meyiti aidiyyəti üzrə təhvil verilib.



## "Barselona" bu futbolçuya qiymət qoydu: 80 milyon avro!

"Barselona" futbolçusu Rafinyaya qiymət qoyub. QOL.az "Sport"a istinadən xəbər verir ki, Kataloniya təmsilçisi braziliyalı vingeri 80 milyon avroya satmağa hazırdır. 27 yaşlı oyunçunun qiyməti ilə bağlı qərar Premyer Liqa klublarından 60 milyon avroluq təkliflər aldıqdan sonra verilib. Onunla maraqlanan klublar arasında "Çelsi" və "Mançester Yunayted" də var. Bu mövsüm Rafinya 31 oyuna çıxıb, 8 qol vurub və 10 qolun ötürməsini verib.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3200